

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Böyük QAYIDIŞ: YENİDƏN QURULAN FÜZULİ**




10


# SƏS

№ 151 (6834)

24 avqust 2023-cü il.
Qiymәti 60 qәpik


## Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında yeni mərhələ

2



*İLHAM ƏLİYEV: "Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq münasibətlərinin çoxəsrlik tarixi var"*

# Dünyanın aparıcı idman ölkəsi

5



*Azərbaycan inkişafının bütün istiqamətləri üzrə modelini ortaya qoyması danılmazdır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanan ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara ev sahibliyi etməsi ölkəmizin elmə, təhsilə, mədəniyyətə, idmana və digər sahələrə olan diqqəti ilə yanaşı, bu və ya digər sahələrdə qazanmış olduğu uğur və nailiyyətlərin təsdiqidir.*

## Erməni siyasətçilərinin iddiaları ölkəni məhvə sürükləyir




9

## Dağıdıcı müxalifətin sonu yaxınlaşır



13

## Küveyt mediası: "Ermənilər çar Rusiyası tərəfindən Azərbaycanın əzəli torpaqlarında məskunlaşdırılıblar"




وأشار الرئيس إلهام علييف في خطابه إلى أهمية اتخاذ جميع الإجراءات اللازمة على المستوى القانوني: "يجب إشراك المحامين الدوليين. وسوف يوضحون لنا كيفية تحقيق هذه الرغبة والحق في العودة على المستوى الدولي ".

أصدرت وزارة خارجية أرمينيا بيانًا في 18 مارس حاولت مرة أخرى تقويض حق عودة ...بيجانيين المطرودين من هذا البلد. ردا

9

## Bəhsəbəhs-ömrün mişarı...

*Bəhsəbəhs sözünün lüğəti mənası bir-biri ilə yarışmaq, bir-birinin acığına kimi ifadə olunsa da, lakin bəziləri üçün xarakterik olan bu hisslərin altında paxıllıq və həsəd yatır. Yəni, bəhsəbəhsliyi paxıllıq və həsəd meydana gətirir. Bəhsəbəhs, əslində, özündə yaxşı tərəfləri də o mənada cəmləyir ki, məktəbdə biri dərslərini yaxşı oxuyanda, müəllim onu tərifləyəndə o biri şagird də yaxşı oxumağa cəhd edir.*



14

## Azərbaycanda dərmanların qiyməti ucuzlaşacaq?



16

# Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında yeni mərhələ



### Prezidentlərin Füzuli rayonuna və Şuşaya səfəri

Azərbaycan Respublikasında dövlət səfərində olan Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev avqustun 23-də Füzuli rayonuna səfər edib. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevi və xanımı Ziroatxon Mirziyoyevanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qarşılayıblar.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirak ediblər. Dövlət başçıları və xanımları əvvəlcə yeni dərs ilində bu məktəbdə təhsilə başlayacaq şagirdlərlə və burada işləyəcək müəllimlərlə görüşüb söhbət ediblər.

Prezident İlham Əliyev bildirib ki, bu məktəbi Özbəkistan Prezidenti Füzuli şəhərinə hədiyyə edib. Məktəbin direktoru Həcər Mahmudova prezidentləri müəllimlər, şagirdlər, valideynlər adından salamlayıb. Qeyd edib ki, otuz il öncə 26 yaşında bu şəhəri tərk edən sakini kimi mən deməli olar ki, eyni tarixlərdə, - bir gün fərqi var, - buraya qayıtmışam. Bu anları bizə yaşatdığınıza görə Sizə təşəkkür edirik, qalib Ordumuza minnətdarıq. Bu gözəl məktəbi tikib bizə bəxş etdiyinə görə Özbəkistan Prezidenti cənab Şavkat Mirziyoyevə və onun timsalında Özbəkistan xalqına minnətdarıq. Cənab Mirziyoyevdən xahiş edirik ki, bizim Füzuli sakinlərinin bu minnətdarlığını öz xalqına, özbək xalqına çatdırsın.

Sonra dövlət başçıları məktəbin rəmzi açılışını bildirən lenti kəsiblər.

Azərbaycan ilə Özbəkistan prezidentləri və xanımları Füzuli şəhərində yeni evlərə köçürülmüş sakinlərlə görüşüblər. Sakinləri təbrik edən Prezident İlham Əliyev deyib: "İlk növbədə, sizi təbrik edirəm, öz vətəninizə xoş gəlmisiniz. Otuz il Vətən həsrəti ilə yaşamış insanlar artıq öz dədə-baba torpağına qayıdıblar və burada yaşayırlar. Beş gün bundan əvvəl birinci qrup Füzuli sakinləri Füzulidə yerləşdi, gözəl evlərdə yerləşdi və bundan sonra burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz. Mən bu gün əziz qardaşım Şavkat Miromonoviç ilə birlikdə sizinlə görüşə gəlmişəm. Bildiyiniz kimi, hörmətli Prezidentin əmri ilə Füzulidə Mirzə Uluqbəyin adını daşıyan gözəl məktəb inşa edildi. Sizin uşaqlarınız, nəvələriniz artıq sentyabrın 15-dən başlayaraq bu məktəbdə oxuyacaqlar. Bu gözəl hədiyyəyə görə sizin adınızdan əziz qardaşıma bir daha təşəkkür edirəm. Sizi bir daha ürəkdən təbrik edirəm. Burada rahat, xoşbəxt yaşayın!".



## İLHAM ƏLİYEV: "Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq münasibətlərinin çoxəsrlik tarixi var"





Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərinin Baş planı ilə tanış olublar. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə, xanımı Ziroatxon Mirziyoyevaya Füzulidə görülən işlərlə bağlı məlumat verdi.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Şuşa şəhərinə səfər ediblər. Dövlət başçıları və xanımları Saatlı məscidində olub, Heydər Əliyev Fondu tərəfindən bərpa edilən Yaradıcılıq Mərkəzində "Heydər Əliyev və Qarabağ" sərgisinə, Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin işğal dövründə Şuşada ermənilər tərəfindən güllələbaran edilmiş heykəllərinə baxıblar. Şuşanın Baş planı ilə tanışlıqdan sonra prezidentlər və xanımları Natəvan bulağında, Yuxarı Gövhər Ağa məscidində, Bülbülün ev-muzeyində, Mehmandarovların malikanə kompleksində və Cıdır düzündə olublar.

* * *

Bəli, bu gün 2020-ci ildə Vətən müharibəsində Azərbaycanın öz ərazilərini erməni işğalından azad etməsindən sonra ölkəmizin regionda və dünyada nüfuzu durmadan artır. Xüsusilə, də Azərbaycanla Mərkəzi Asiya ölkələri, o cümlədən Özbəkistan arasında münasibətlərdə müşahidə olunan canlanma son dövrlər daha da genişlənməkdədir. Azərbaycan və özbək xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni etnik kökə malik hər iki xalq arasındakı əlaqələr qədim dövrlərə gedib çıxır. Xüsusilə də, müstəqillik illərində iki qardaş ölkə arasında əlaqələrin inkişafında, dövlətlərarası münasibətlərin formalaşmasında ulu öndər Heydər Əliyevin və Özbəkistanın sabiq Prezidenti İslam Kərimovun müstəsna xidmətləri olub.

Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan-Özbəkistan münasibətləri yeni mərhələyə qədəm qoyub. Belə ki, Azərbaycan-Özbəkistan münasibətləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

### AZƏRBAYCAN-ÖZBƏKİSTAN ARASINDA İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA DÖVLƏT BAŞÇILARININ QARŞILIQLI SƏFƏRLƏRİ...

Azərbaycanla Özbəkistan arasında ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının qarşılıqlı səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Bu baxımdan, Özbəkistanın mərhum Prezidenti İslam Kərimovun 1996-cı il mayın 26-27-də Azərbaycana ilk rəsmi səfəri xüsusi qeyd olunmalıdır.

Ardı Səh. 3

# Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında yeni mərhələ



rına uyğun olaraq, ilk öncə Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına riayət olunması və təmin edilməsi, habelə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏT-in qərarları əsasında tezliklə həll olunmasının zərurəti öz əksini tapmışdır. Özbəkistan tərəfi, Müstəqil Dövlətlər Birliyinin sədri kimi dostluq, mehriban qonşuluq və qarşılıqlı etimad münasibətlərinin möhkəmləndirilməsinin, MDB məkanındakı mübahisələrin beynəlxalq hüququn normalarına uyğun olaraq sülh yolu ilə həll olunmasının vacibliyini bir daha təsdiqləyir. 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycanı Qarabağın qaytarılması və tarixi ədalətin bərpa olunması münasibətilə təbrik edib. Həmin ilin noyabrında İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə isə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Özbəkistanın vəsaiti hesabına Füzulidə böyük məktəb inşa ediləcəyini bildirib. 3 hektar ərazidə 960 yerlik məktəb tikintisi üçün ərazi artıq müəyyənləşdirilmiş və ilkin işlərə başlanılıb. Bu, Azərbaycanla Özbəkistan arasında dostluğun, əsl qardaşlığın rəmzidir. Özbəkistan Prezidenti Füzulidə böyük məktəb inşa ediləcəyini bildirməklə işğaldan azad olunmuş Azərbaycan torpaqlarında bərpa və quruculuq prosesinə əməli dəstəyini ifadə edib.

## *ŞAVKAT MİRZİYOYEV: "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır"*





**Əvvəli-Səh-2**

Qarşılıqlı anlaşma və dostluq şəraitində keçən səfər zamanı iki ölkə arasında 18 sazişdən ibarət xüsusi sənədlər paketi, o cümlədən "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə" imzalanıb. 1996-cı il oktyabrın 21-22-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkdilli Dövlət Başçılarının IV Sammitində və görkəmli dövlət xadimi Əmir Teymurun 660 illik yubiley mərasimində iştirak etmək üçün Daşkənddə səfərdə olub. 1997-ci il iyunun 18-19-da ulu öndər Heydər Əliyevin Özbəkistana rəsmi səfərini isə münasibətlərin inkişafında yeni mərhələ kimi səciyyələndirmək olar. Həmin səfər zamanı Daşkənddə ölkələrimiz arasında 19 sənəd imzalanıb. Bu sənədlər içərisində "Azərbaycanla Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə" böyük əhəmiyyət kəsb edir. Bu sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün möhkəm fundamental hüquq-müqavilə bazası yaradıb.

### Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı olub

2004-cü il martın 23-24-də Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda dövlət səfərində olub. Səfər zamanı "Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə" imzalanıb. Strateji münasibətlərin əsasını qoyan həmin sənəddə bildirilir ki, tərəflər keçmiş Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinə və BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin və ATƏT-in qərarlarının yerinə yetirilməsinə qəti şəkildə dəstək verdiklərini ifadə edirlər.

Vurğulamaq lazımdır ki, rəsmi Daşkənd artıq tarixin arxivinə göndərilmiş Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib. BMT Baş Assambleyasında 14 mart 2008-ci il tarixində səsverməyə çıxarılmış "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət" adlı qətnaməyə Özbəkistan lehinə səs vermiş yeganə Mərkəzi Asiya ölkəsi olub. Azərbaycan Prezidentinin və Özbəkistan Prezidentinin 2010-cu il sentyabrın 27-də Daşkənd şəhərində imzalanmış Birgə Bəyannaməsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn ümumtanınmış prinsip və normala-

Aydındır ki, Azərbaycanın gücü də, imkanları da kifayətdir ki, bütün işləri özü reallaşdırsın, lakin Özbəkistan Prezidenti bu nəcib və mərd addımı ilə bir daha iradə nümayiş etdirərək Azərbaycan xalqının yanında olduğunu göstərdi.

### AZƏRBAYCAN PREZİDENTİ: "Azərbaycanı və Özbəkistanı qədim tarix birləşdirir"

"Azərbaycanı və Özbəkistanı qədim tarix birləşdirir və bu təməl qarşılıqlı fəaliyyətin inkişafı üçün əsasdır. Sevindirici haldır ki, bütün istiqamətlərdə əməkdaşlıq çox səmərəli və məhsuldar gedir". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev avqustun 22-də özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə keçirdiyi geniş tərkibdə görüşdə deyib.

*Ardı Səh. 4*

# Azərbaycan-Özbəkistan münasibətlərinin inkişafında yeni mərhələ





Əvvəli-Səh-3

Son vaxtlar ölkələrimiz arasında dövlətlərarası münasibətlərin ən yüksək səviyyəyə çatdığını vurğulayan dövlətimizin başçısı qeyd edib: "Özbəkistana dövlət səfərimi və mənə göstərilən qonaqpərvərliyi məmnunluqla xatırlayıram. Həmçinin demək istəyirəm ki, Özbəkistanın şahidi olduğum sürətli inkişafı, transformasiya, islahatlar, ölkənin Mərkəzi Asiya regionunun güclü sənaye dövlətinə çevrilməsi məndə dərin təəssürat yaratdı".

Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə mətbuata bəyanatında deyib ki, xalqlarımız arasında qardaşlıq münasibətlərinin çoxəsrlik tarixi var, dostluq və qardaşlığın bütün dövrü ərzində biz həmişə bir-birimizin yanında olmuşuq, bir-birimizi dəstəkləmişik. Sabah Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin şəxsi təşəbbüsü ilə Azərbaycana hədiyyə edilmiş məktəbin açılışında iştirak edəcəklərini bildirən dövlətimizin başçısı qeyd edib ki, bu, Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsidir və biz bu qardaşlıq, həmrəylik və dəstək jestini çox yüksək qiymətləndiririk: "Artıq onu da demək lazımdır ki, bu məktəb, əslində, bir təhsil sarayıdır. Mən mayda Füzuliyə səfərim zamanı tikinti işləri ilə tanış oldum və Özbəkistanın bizə bağışladığı həmin qardaş hədiyyəsinin miqyasını əyani şəkildə gördüm".





### DÖVLƏTİMİZİN BAŞÇISI: "Şavkat Mirziyoyevin Prezident seçilməsindən sonra ilk dövlət səfərini Azərbaycana etməsini yüksək qiymətləndiririk"

Azərbaycan Prezidenti İlham Əliyev Şavkat Mirziyoyevin Özbəkistan Prezidenti seçilməsindən sonra ilk dövlət səfərini Azərbaycana etməsi faktını qardaşlıq və dostluğun göstəricisi adlandırıb. Dövlətimizin başçısı özbək həmkarı ilə mətbuata bəyanatında deyib: "Sizin Özbəkistan Prezidenti seçilməyinizdən sonra ilk dövlət səfərini Azərbaycana etməyinizi çox yüksək qiymətləndiririk. Bu, bizim qardaşlığımızın, dostluğumuzun və Sizin ölkəmizə və xalqımıza münasibətinizin göstəricisidir".

Özbəkistan xalqının Şavkat Mirziyoyevə yenidən böyük etimad göstərdiyini və onun Özbəkistanın inkişafı naminə səylərini layiqincə qiymətləndirdiyini vurğulayan Azərbaycan Prezidenti qeyd edib: "Qardaş ölkə Sizin rəhbərliyiniz altında quruculuq yolu ilə uğurla irəliləyir. Mənim Sizin rəhbərliyinizlə Özbəkistanda ölkənin inkişafı, onun potensialının möhkəmlənməsi, müdafiə qabiliyyətinin güclənməsi, həmçinin beynəlxalq məsələlərdə nüfuzunun artması üçün həyata keçirilən böyük dəyişiklikləri dəfələrlə şəxsən görmək imkanım olub". Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan və Özbəkistan münasibətlərinin ən yüksək səviyyəyə çatdığını deyərək bildirib ki, bu gün görüşlər və danışıqlar çərçivəsində mahiyyətcə münasibətlərimizin inkişafının gələcəyini müəyyən etdik.

Dövlətimizin başçısı vurğulayıb ki, artıq əldə edilən nəticələr iki ölkənin doğru yolda olduğunu göstərir: "Bu gün nümayəndə heyətlərinin üzvlərinin qarşıdakı, fikrimcə, iki-üç ildə gözlədiklərimizin çərçivəsində bizə məruzə etdikləri deməyə əsas verir ki, ölkələrimiz arasındakı münasibətləri ən yüksək səviyyəyə çatdırmışıq. Təsadüfi deyil ki, bu gün imzalanan sənədlərdən biri Ali Dövlətlərarası Şuranın yaradılması barədə sənəddir. Bu, münasibətlərin yüksək səviyyəsidir və ölkələrimiz arasında qardaşlıq münasibətlərinin göstəricisidir, həmçinin onu göstərir ki, gündəlik kifayət qədər genişdir".

### AZƏRBAYCAN PREZİDENTİ: "Azərbaycanın və Özbəkistanın enerji şirkətləri sıx qarşılıqlı fəaliyyət göstərirlər"

Azərbaycanın və Özbəkistanın enerji şirkətlərinin sıx qarşılıqlı fəaliyyət göstərdiyini söyləyən dövlətimizin başçısı bildirib ki, biz nəqliyyat-logistika sahəsində yük axınının gücləndiyini, ən başlıcası, bu istiqamətdə əməkdaşlıq potensialının artdığını görürük və bu gün bütün istiqamətlər üzrə uğurlu qarşılıqlı fəaliyyəti uzun illər öncədən müəyyən edəcək məsələləri müzakirə etdik.

Azərbaycan Prezidenti hər iki ölkə ictimaiyyətinin bugünkü danışıqların nəticəsini hər iki ölkədə layihələrin praktiki olaraq reallaşmasında görəcək. Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, bu yaxınlarda 500 milyon dollarlıq nizamnamə fondu ilə yaradılan birgə investisiya fondu bu məbləği çox sürətlə mənimsəyəcək və onu artırmaq lazım gələcək: "Bütün bunlar yenə də ondan xəbər verir ki, biz doğru yoldayıq, prezidentlərin qarşıya qoyduqları vəzifələr yerinə yetirilir. Şavkat Miromonoviçlə bir neçə il əvvəl razılığa gəldiyimiz kimi, biz verilən bütün tapşırıqların icrasına mütəmadi rejimdə nəzarət edirik. Bu, uğurun əsas şərtlərindən biridir".

### ŞAVKAT MİRZİYOYEV: "Özbəkistan Azərbaycanın uğurlarına çox sevinir"

Özbəkistan prezidenti bildirib ki, yaxın qonşular, yaxın ölkələr kimi Azərbaycanın uğurları ilə fəxr edir, onlara sevinirik. Özbəkistanda Azərbaycanın beynəlxalq arenada nüfuzunu, ümumiyyətlə son illərdə bütün istiqamətlərdə uğurları ilə qürur duyduqlarını vurğulayan Ş.Mirziyoyev deyib: "Belə ki, yaxın qonşular kimi biz çox sevinirik və uğurlar arzu edirik".

Özbəkistan Prezidenti onu da vurğulayıb ki, Ali Dövlətlərarası Şuranın yaradılması yüksək etimadın göstəricisidir: "Bizim yaratdığımız Ali Dövlətlərarası Şura etimadın ən yüksək səviyyəsi və razılaşdırdığımız strateji istiqamətlərin ən yüksək səviyyədə davamıdır. Ona görə də düşünürəm ki, ölkə Prezidenti seçildikdən sonra ilk səfərimdən çox məmnunam".

Beləliklə, eyni soy-kökə və uzun tarixə söykənən Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. İki ölkə arasında bu vaxtadək imzalanmış yüzlədən çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir.

Bir sözlə, iki dost və qardaş ölkələrin – Azərbaycan və Özbəkistan liderləri - Prezident İlham Əliyev və Prezident Şavkat Mirziyoyevin səfərləri, görüşləri, imzalanan sənədlər və liderlərin səsləndirdiyi fikirlər iki ölkə münasibətlərində dərin əməkdaşlığa əsaslanan yeni mərhələnin əsasının qoyulduğunu deməyə əsas verir. Dövlət başçımızın dediyi kimi: "Biz dostlar kimi, qardaşlar kimi Sizin uğurlarınıza sevinirik. Əminik ki, qardaş özbək xalqının ardıcıl inkişafı davam edəcək".

*RƏFİQƏ KAMALQIZI*

# Dünyanın aparıcı idman ölkəsi



*Azərbaycan inkişafının bütün istiqamətləri üzrə modelini ortaya qoyması danılmazdır. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm nailiyyətlər qazanan ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara, konfranslara ev sahibliyi etməsi ölkəmizin elmə, təhsilə, mədəniyyətə, idmana və digər sahələrə olan diqqəti ilə yanaşı, bu və ya digər sahələrdə qazanmış olduğu uğur və nailiyyətlərin təsdiqidir.*





Paytaxtımızda NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının illik sessiyası, IV Bakı Beynəlxalq Humanitar, Gənclər siyasəti üzrə I Qlobal forumu, Caz Festivalı, "Eurovision-2012" musiqi yarışması, "Bakı Elm Festivalı-2014", BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu kimi mühüm əhəmiyyət kəsb edən müxtəlif məzmunlu tədbirləri təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi, yüksək imici səbəb olmuşdur. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan təşkilatçılıq, təhlükəsizlik, iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlərin yüksək səviyyədə təşkili öz həllini tapır. Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut etdi ki, həqiqətən də, Azərbaycan idman uğurla və sürətlə inkişaf edir.

## "İDMANIN İNKİŞAFI XALQIN SAĞLAMLIĞIDIR VƏ AZƏRBAYCAN XALQI SAĞLAM OLMALIDIR"

İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğulayıb ki, idmanın kütləviliyini təmin edərək biz xalqımızın sağlamlığını qoruyacağıq və bizim gənclərimiz, gənc nəsil sağlam olacaq - həm fiziki cəhətdən, həm mənəvi baxımdan: "Çünki fiziki cəhətdən güclü insan adətən öz gücündən yalnız çətin məqamda istifadə etməlidir. Güclü insanda özünə əminlik var. Fiziki cəhətdən güclü insan heç vaxt ondan zəif insana qarşı zor tətbiq etməməlidir. Ancaq özünü, öz yaxınlarını, öz torpağını qorumalıdır. Ona görə idmanın inkişafı, sadəcə olaraq, idman nəticələri əldə etmək üçün vasitə deyil, idmanın inkişafı xalqın sağlamlığıdır və Azərbaycan xalqı sağlam olmalıdır". Müasir dövrümüzdə Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər mühiti formalaşıb. Gənclər siyasəti gənc nəslin ictimai-siyasi həyatdakı rolunun artmasına, ölkənin aparıcı qüvvəsinə çevrilməsinə, bütövlükdə, kreativ gəncliyin formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli iştirakının təmin olunması, milli-mənəvi dəyərlərə bağlılığının möhkəmləndirilməsi üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Xalqımızın qəhrəmanlıq tarixini yazanlar da gənclərdir.

Qazanılan uğurlar, bir daha onu sübut edir ki, hər bir gənc ölkə qarşısında qoyulan böyük məqsədi və məsuliyyəti dərk edir. 44 günlük Vətən müharibəsində gənclərimiz vətənpərvərlik nümayiş etdirdilər. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. Azərbaycan dövləti idmanın, xüsusilə də, Olimpiya Hərəkatının inkişafına xüsusi diqqət yetirir. Ümummilli Lider Heydər Əliyevin diqqət və qayğısı ilə özündə yeni keyfiyyət dəyişikliklərini əxz edən Azərbaycanın Olimpiya hərəkatı tezliklə sürətli inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub.

## GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİNƏ 5.424,0 MİN (BEŞ MİLYON DÖRD YÜZ İYİRMİ DÖRD MİN) MANAT VƏSAİT AYRILIB

"Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyindəki bəzi qurumlarda cari təmir işləri üçün vəsait ayrılması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı məhz bu sahəyə ayrılan diqqətin nəticəsidir. Sərəncama əsasən, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyindəki bəzi qurumlarda cari təmir (havalandırma, soyutma, isitmə, nəmalma və yanğın təhlükəsizliyi sistemləri üzrə avadanlıq alınması və quraşdırılması, habelə dam örtüyünün təmiri) işləri üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə ilkin olaraq 5.424,0 min (beş milyon dörd yüz iyirmi dörd min) manat vəsait ayrılıb.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya komplekslərı və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub. Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. "Hazırda biz idmanın kütləviliyi üzərində çalışırıq ki, hər rayonda idman infrastrukturumuz olsun. Bunu artıq yaratmışıq", - deyə Prezident müsahibələrinin birində diqqətə çatdırıb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir.

İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunub. Yeniyetmə cüdoçuların Avropa çempionatı, bədii gimnastika üzrə 27-ci dünya çempionatı, sərbəst güləş və yunan-Roma güləşi üzrə 24-cü dünya çempionatı, görmə qüsurlu paralimpiyaçı cüdoçular arasında Avropa çempionatı, bədii gimnastika üzrə 25-ci Avropa çempionatı, qılıncoynatma üzrə gənclər və kadetlər arasında dünya çempionatı, gənclər arasında boks üzrə dünya çempionatı və s. keçirilib. Bu yarışların Azərbaycanda keçirilməsi, inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. İlk Avropa Oyunlarının da Bakıda keçirilməsi böyük nailiyyət oldu. "Bakı - 2015" Birinci Avropa Oyunlarının yüksək səviyyədə təşkil olunması və tarixi qələbənin qazanılması gələcəkdə ölkəmizdə daha möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün yeni perspektivlər açdı. "Bakı-2015" ilk Avropa Oyunları təkcə qitədə deyil, dünya miqyasında mötəbər idman tədbiri kimi tarixiləşdi. İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançılarının qələbələri də yaddaqalan oldu. Bu idman, dostluq və qardaşlıq bayramına çevrilən oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Azərbaycan 2015-ci ildə Avropa Oyunlarında ikinci, 2017-ci ildə İslam Həmrəyliyi Oyunlarında isə birinci yerə layiq görüldü. "Avropa Liqasının 2019-cu ildəki final matçı və UEFA 2020-ci ilin matçları 2021-ci ildə Bakıda keçirildi. Bəli, Bakı artıq böyük idman tədbirləri üçün beynəlxalq məkana çevrilib. Bütün bu uğurlar onu göstərir ki, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam yetişməsini dövlətimiz daim diqqət mərkəzində saxlayır. Məhz bu diqqət və qayğı Azərbaycanın qarşıdakı illərdə idmanda daha böyük uğurlara imza atacağını deməyə əsas verir. Bu gün ölkəmizdə cəmiyyətin inkişaf edən bütün sahələri kimi idman da öz çiçəklənmə dövrünü yaşayır. Yüksək səviyyəli idman infrastrukturunun yaradılması və olimpiya idman komplekslərinin inşa edilərək xalqımızın ixtiyarına verilməsi bunun təzahürüdür.

***Zümrüd BAYRAMOVA***

# Ziyalılığın ali zirvəsi









***Azərbaycanın çoxəsrlik tarixində dövlət üçün çox önəmli olan şəxsiyyətlər yetişmiş, onların şan-şöhrəti beynəlxalq arenada əks-səda doğuraraq ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına səbəb olmuşdur. Hər dövrün yetişdirdiyi ziyalı bir missiya olaraq Azərbaycanın sosial, iqtisadi, mədəni inkişafına imza ata biləcək məsələləri öz üzərinə götürməklə xalq qarşısında, vətəndaşlıq borcunun ödənilməsinə cəhd edir. Müasir dövrümüzdə bu ziyalılığın ali zirvəsində olan Azərbaycanın Birinci Xanımı Mehriban xanım Əliyevanın qısa bir zamanda Azərbaycan üçün gördüyü işlər bir əsrin tarixi qədər möhtəşəm və alidir. Onun qəlbin dərinliklərində olan vətənpərpəlik, milli heysiyyat kimi mənəvi dəyərləri məhz dünya arenasında Mehriban xanım Əliyeva isminə böyük bir məhəbbət yaratmışdır.***

Yaşadığımız qloballaşma dövründə, Azərbaycanın dünyaya inteqrasiya etdiyi bir zamanda milli-mənəvi dəyərlərin üzə çıxarılması, Azərbaycanın bir dövlət olaraq məxsusiliyinin dünyəviləşməsi istiqamətində Mehriban Əliyevanın gördüyü işlər tarixin bu günü üçün deyil, zamanın axarında neçə-neçə qərinələrə, əsrlərin yaddaşıda iz buraxacaq hadisələrlə bağlıdır.

”Həyatda nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız”, - deyə Mehriban xanım Əliyeva bildirir. Müasir həyata baxışda fərqlilik, dünyəvi proseslərdəki müxtəliflik prizmasında Mehriban Əliyevanın gördüyü işlərin dəyəri açıq-aydın görünməkdədir. Böyük və məsuliyyətli missiyanın daşıyıcısı olmaq yükünü üzərinə götürən Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin vətən, xalq üçün göstərdiyi xidmətləri, onun ümumbəşəri ideyalarını, zəngin irsini təbliğ etmək, gənclər və gələcək nəsillər üçün qoruyub saxlamaq missiyasını daşıyıcısına çevrildi. Heydər Əliyev Fondunun Prezidenti olaraq çoxşaxəli fəaliyyətinin öncül istiqamətlərindən biri cəmiyyətimizdə mövcud olan problemlərin çözülməsinə diqqət ayırdı. Yardıma ən çox ehtiyacı olan insanlara diqqət və qayğı göstərməyi vacib hesab etdi. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən, Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında özünü göstərir. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, Onun yaratdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Fondun genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurmasına gətirib çıxarıb. Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir.

İllərdir ki, yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci Xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu fəaliyyət özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: ”Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir”. Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: ”Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət – həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur”. Bu yol həqiqətə, insanlığa, mərhəmətə aparan yoldur. Azərbaycanda uşaqların sağlam və gümrah böyümələri, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir.

**Ardı Səh. 7**

# Ziyalılığın ali zirvəsi



Əvvəli-Səh-6

Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir, bu sahəni daim diqqət mərkəzində saxlayır. Heydər Əliyev Fondunun bu sahədə gördüyü işləri isə sadalamaqla qurtaran deyil. "Uşaqlıq dövrü insan həyatının ən rəngarəng, ən yaddaqalan və ən xoşbəxt dövrüdür. Məhz bu illərdə, bu dövrdə insanın gələcək taleyinin, onun, fiziki və mənəvi sağlamlığının, vətəndaş mövqeyinin, insani cəhətlərinin əsası qoyulur", - deyən Mehriban Əliyeva onların xoşbəxt gələcəyi üçün müxtəlif layihələr həyata keçirib. Valideyn himayəsindən məhrum olunmuş uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması, cəmiyyətdə hərtərəfli inkişafı, onlara yüksək səviyyədə səhiyyə xidmətlərinin göstərilməsi Heydər Əliyev Fondunun diqqətdə saxladığı ən vacib məsələlərdəndir.

Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları onlarla internat məktəbi və uşaq evləri əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Hətta, kimsəsiz uşaqlara ev şəraitinə uyğun mühit yaradılmışdır. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan Fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir. Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir. Məktəbəqədər hazırlıq müəssisələrinin, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi Heydər Əliyev Fondunun diqqət mərkəzindədir. "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemlərini daim diqqətdə saxlanılıb. Müasir tələblərə cavab verən uşaq evlərində inşa edilmiş hamam, üzgüçülük hovuzu, yay konsert meydançası, stadion, iclas, idman, rəqs salonları, həyətdəki yaşıllıqlar, uşaqların əl işləri muzeysərgisi burada balacaların fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün hər cür şərait yaradıldığına, Fondun xeyirxah fəaliyyətinin bəhrəsinə əyani sübutdur.

"Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı" kimi layihələri Onun humanizm prinsiplərindən qaynaqlanır. Bütün bu reallıqlar Mehriban Əliyevanın bir qadın, ana, ictimai xadim kimi fəaliyyətində reallığa çevrilib.

### "BİGANƏLİK VƏ LAQEYDLİK ƏN DƏHŞƏTLİ XÜSUSİYYƏTDİR"

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva ictimai-siyasi, mədəni həyatda aparıcı qüvvəyə çevrilərək, əməli fəaliyyət ilə böyük nüfuza sahib olub. Bu gün cəmiyyətimizin örnəyinə çevrilən Mehriban xanım məsuliyyət və zəhməti ilə fəaliyyətini davam etdirir. Onu vətənpərvərliyi, vətənə bağlılığı xalqı, milləti üçün böyük amallara xidmət etməyə sövq edir. Təbii ki, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması Onun vətənə bağlılığından irəli gəlir. Azərbaycan dövlətçiliyi tarixində ilk dəfə olaraq "Birinci xanım" statusunu məhz Mehriban Əliyeva formalaşdıraraq cəmiyyətin həyatına birinci xanım ənənəsini gətirmiş oldu. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Birinci vitse-prezident seçildikdən sonra müsahibələrindən birində bildirib ki, yeni vəzifədə Prezidentin etimadını, ən başlıcası isə ona inanan, ona ümid bəsləyən insanların etimadını doğruldacaq: "Məni Azərbaycanın Birinci vitse-prezidenti vəzifəsinə təyin etmək qərarı Azərbaycan Prezidentinin şəxsi təşəbbüsü olub. Əlbəttə, uzun illər ərzində həm Prezidentin xanımı, həm də onun silahdaşı olmağım da yəqin ki, öz rolunu oynayıb".

Azərbaycanın Birinci vitse-prezidenti müxbirin "Siz dərhal razılaşdınızmı?" sualına cavabında deyib: "Biz müzakirələr aparır, götür-qoy edirdik. Mənim əsas tərəddüdüm üzərimə qoyulan bu məsuliyyətin öhdəsindən nə dərəcədə gələ biləcəyim müstəvisində idi. Mən birmənalı şəkildə bilirəm və əminəm ki, dövlətin maraqları ilə həyat yoldaşımın mənə tövsiyələri və deyəcəkləri tamamilə üst-üstə düşəcək. Deməli, yanımda onun simasında birmənalı şəkildə mənə kömək edəcək, hər hansı çətinliyim olarsa məni dəstəkləyəcək, düzgün yol göstərəcək bir şəxsiyyət var. Mən Prezidentin etimadını, ən başlıcası isə mənə inanan, ümid bəsləyən insanların etimadını doğrultmalıyam". Belə də oldu. Mehriban xanim ən çətin zamanlarda insanların yanında oldu. "Mən əsas diqqəti sosial problemlərin, əhalinin aztəminatlı təbəqələrinin problemlərinin həlli üzərində cəmləşdirmək istəyirəm. Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. Bunlar olmamalıdır - istər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır", - deyə Birinci xanım bildirib.

Heydər Əliyev ideologiyasını davam etdirmək və prinsipləri gerçəkləşdirmək üçün Heydər Əliyev Fondunun yaradılması onun çoxsaylı layihələrinə imza atdı. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən, Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında özünü göstərir.

### "BİR VAXTLAR AZƏRBAYCANIN DİLBƏR GUŞƏSİ OLAN QARABAĞ BÖLGƏSİNDƏKİ ABADLIQDAN ƏSƏR-ƏLAMƏT QALMAMIŞDIR"

Fondun tarixi, mədəniyyət və dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Odur ki, Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə yeni layihəyə başlayıb. "Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşdur. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır", - deyə Mehriban Əliyeva bildirib. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərdə 2020-ci il dekabrın 8-dən etibarən mədəni-dini abidələrin, məscidlərin bərpası layihələrinin icrasına başlayıb. Bununla da Heydər Əliyev Fondu tarixi bərpa işlərində dövlət tərəfindən həyata keçirilən layihələrə vətəndaş cəmiyyətinin üzvü kimi öz dəstəyini göstərir. Aparılan işlərə yerli ekspertlərlə yanaşı, xarici mütəxəssislər də cəlb olunub. Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilib.

Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir. Heydər Əliyev Fondu hazırda Şuşada daha bir neçə layihənin bərpasını başa çatdırıb. Mehmandarovların malikanə kompleksi də bu layihələrdən biridir. Mehmandarovların malikanə kompleksi Mehmandarov nəslinin nümayəndələri tərəfindən XVIII əsrdə inşa olunub. Yaşayış kompleksinə böyük yaşayış binası, kiçik yaşayış binası, ailə məscidi və bulaq daxildir. 2021-ci ilin oktyabr ayından etibarən Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bulaq Prezident İlham Əliyev 2022-ci ilin sentyabrında kompleksdə bərpa işlərinin gedişi ilə tanış olarkən istifadəyə verilib. Qeyd edək ki, Şuşadakı Saatlı məscidi də Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılmışdı. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb. İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb. Həmçinin zədələnmiş ön sütunun gücləndirilməsi işləri həyata keçirilib, məscidin döşəməsi bərpa edilib. Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Mehriban Əliyevanın gələcək fəaliyyətinin əsasında da qeyd etdiyimiz bu və ya digər məsələlər daha da geniş bir planda, layihələr əsasında həyata keçirilməsi dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qalib Liderimizin diplomatik müstəvidə qələbəsi



**PREZİDENT İLHAM ƏLİYEV: "Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz"**

***"Müharibədən ötən iki il yarım müddət ərzində bütün dünya, eyni zamanda, anti-Azərbaycan qüvvələr bizim əyilməz iradəmizi gördü". Bəli, bu gün sözü imzası qədər dəyərli olan Ali Baş Komandan, Prezident İlham Əliyev cənablarının son 20 illik prezidentlik dövründə çoxəsrlik Azərbaycan tarixində xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Prezidentin dediyi kimi: "Heç kim bizim iradəmizə təsir edə bilməz.***



Təhlil

Heç kim bizimlə ultimatum dili ilə danışa bilməz". Çünki bu qələbə, uğurlu nəticələr məhz Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "Güclü ordu - güclü dövlət" strategiyasının konsepsiyanın nəticəsidir və bu üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Bir sözlə, ötən illər həm də onu göstərdi ki, Prezident İlham Əliyev sözü imzası qədər dəyərli olan qurucu, birləşdirici, Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi liderdir.

Bir sözlə, sözü ilə əməli üst-üstə düşən, imzası qədər dəyərli olan Azərbaycan Prezidenti İlham Əliyev dediyi kimi: "Bizim sözümüz imzamız qədər keçərlidir, keçərli olduğu qədər həm də dəyərlidir". Çüni Qalib Liderimiz .

## NƏYİ, NƏ VAXT VƏ NECƏ ETMƏYİ ÖZÜ BİLİR

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə çıxşlarında bildirir: "Mən nəyi, nə vaxt və necə etməyi özüm bilirəm" Bəli, dövlət başçımızın qətiyyətinə və prinsipiallığına inanan Azərbaycan xalqının böyük əksəriyyəti şübhə etmirdi ki, Ali Baş Komandan indiyədək bütün vədlərini yerinə yetirib, dediyi sözlərə əməl edib. Və 30 ilə yaxın işğal altında olan torpaqlarımızı Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu işğaldan azad etdi.

"Biz artıq doğma diyarımızda əbədi yaşayacağıq"-,deyən Ali Baş Komandan, Prezident İlham Əliyev iki il yarım ərzində Qarabağın dirçəlişi yolunda bir çox dövlətlərin 10 il ərzində görə bilmədiyi işləri reallaşdırıb. Və bu gün işğaldan azad olunmuş torpaqlarda görülən uğurlu bərpa-quruculuq işləri göz önündədir. Artıq Xarı bülbül boynunu bükməyib. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı bərpa olunub. "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur" deyən Ümummilli Lider Heydər Əliyevin vəsiyyətinə uyğun hakimiyyətdə olduğu 20 il ərzində, hər gün və hər saat Şuşa başda olmaqla işğalda olan bütün əraziləri azad etmək uğrunda mübarizə aparan Prezident İlham Əliyev cənablarının 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında Sərəncamı tarixi hadisədir.

Bəli, dövlət başçımızın söylədiyi kimi: "Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manea ola bilməz". Bu Qalib Liderin bütün dünyaya növbəti mesajı idi. Düz 30 il düşmən əsarəti altında qalan Qarabaımız Ali Baş Komandan, Prezident İlham Əliyev "Dəmir yumruq" siyasəti altında Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin şücaəti ilə işğaldan azad olundu, torpaqların sahibləri öz torpağına sahib oldu. Bu gün isə Azərbaycan dövlətinin qarşısında duran prioritet məsələ işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Və dövlət başçımızın hər dəfə işğaldan azad olunmuş torpaqlara səfərləri bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin işğaldan azad olunmuş ərazilərin qısa zaman kəsiyində bərpa etməsi üçün önündəki yeganə manea zamandır. Zamanla bütün Qarabağ abadlaşacaq, buna isə heç kəs manea ola bilməz. Çünki

## "BU TORPAQLARIN SAHİBLƏRİ BİZİK - AZƏRBAYCAN XALQIDIR"

Bəli, dövlət başçımızın dediyi kimi: "Çünki bu torpaqların sahibləri bizik - Azərbaycan xalqıdır". Bəli, bu torpaqların sahibi Azərbaycan xalqı olduğu üçün də haqqı, ədaləti, ərazi bütövlüyümüzü bərpa edərək öz torpaqlarımıza sahib olduq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il noyabrın 8-də Şəhidlər Xiyabanında xalqa etdiyi müraciəti isə bütün xalqımızın Qarabağ həsrətinə məlhəm oldu. Ali Baş Komandanın tarixi müraciətindən: "Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində – 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Bir sözlə, mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz elobalarına geri dönəcəklər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!





**RƏFİQƏ KAMALQIZI**

# Erməni siyasətçilərinin iddiaları ölkəni məhvə sürükləyir

ŞƏRH




*Bakı isə hələ ki, səbir edir və belə davam edərsə, Ermənistan daha ağır vəziyyətlərlə qarşı-qarşıya qalmalı olacaq*



müddətə qədər Qarabağda daha erməni qalmayacaq”.

### Boris Aruşanyan: ”Ermənistan bəyan etməliydi ki, rəsmi İrəvan Qarabağın ”müstəqilliyini” tanımağa və təhlükəsizlik təminatı verməyə məcburdur”

Digər erməni politoloqu, Boris Aruşanyan isə deyib ki, Ermənistanın Qarabağı Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tanıması danışıqlarda erməni tərəfinin mövqeyini xeyli zəiflətdi və bu, Ermənistanın tələbi ilə çağırılan BMT Təhlükəsizlik Şurasının sonuncu iclasında açıq şəkildə hiss olundu. “Qarabağ probleminin BMT Təhlükəsizlik Şurasında müzakirəsi ümumilikdə müsbət addımdır. Lakin belə bir şəraitdə nəzərə almaq lazımdır ki, fövqəldövlətlər məsələnin həllini, adətən, zəif tərəfin hesabına təmin edir. Bu gün isə Ermənistan zəif tərəfdir”, - deyə o bildirib.

Onun fikrincə, məhz buna görə də Ermənistan hakimiyyəti BMT Təhlükəsizlik Şurasına müraciət etməzdən əvvəl nəzərə almalı idi ki, onların Azərbaycanın ərazi bütövlüyünü tanıması danışıqlarda mövqelərini əhəmiyyətli dərəcədə zəiflədəcək: ”BMT Təhlükəsizlik Şurasının iclasında Ermənistan bəyan etməliydi ki, rəsmi İrəvan Qarabağın ”müstəqilliyini” tanımağa və təhlükəsizlik təminatı verməyə məcburdur. Belə sərt mövqe qarşısında dünya ictimaiyyəti susacaqdı”.

### Təxribatçı bəyanatlardan doğan təhlükə

Erməni siyasətçinin fikrincə, Ermənistan Qarabağın ”müstəqilliyini” tanıyarsa, bütün məsələlər həllini tapacaq. Lakin buradan da görünür ki, belə təhlükəli fikir ölkənin süqutunu sürətləndirir. Əslində, Aruşanyan



***Hələ də doğru-düzgün yol tapa bilməyən, parçalanan Ermənistan cəmiyyətində baş verən xaotik vəziyyət səngimək bilmir və düşmən ölkənin siyasi dairələrində qarşılıqlı çəkişmələr davam edir. Lakin Ermənistanın üzləşdiyi kəskin böhranda bir-birilərini ittiham edənlər daha çox baş nazir Nikol Paşinyanı günahlandırırlar.***

### Suren Surenyants: ”Qarabağ dövlət qurumu kimi beynəlxalq siyasətdə praktiki olaraq mövcud deyil”

Bu arada, erməni politoloq Suren Surenyants özünün Teleqram kanalında ölkəsinin başına açılan oyunlardan narahat olduğunu deyib. Onun fikrincə, dövlətçiliyin süqutu da məhz belə baş verir. ”Qarabağ dövlət qurumu kimi beynəlxalq siyasətdə praktiki olaraq mövcud deyil və Qarabağ ermənilərı həll yolları axtarmaq əvəzinə toqquşmalara səbəb ola biləcək daxili çəkişmələrlə məşğuldur”, - deyə o bildirib.

Surenyants sülh gündəliyində Rusiyaya aid edilən təkliflərə də toxunub və qeyd edib ki, ruslar Qarabağın ”müstəqilliyi”, hətta ”siyasi muxtariyyəti” belə nəzərdə tutmurlar: ”Orada bələdiyyə və mədəni muxtariyyətin yalnız zəif komponentləri var. Lakin Rusiyanın təklifləri qüvvələr balansına əsaslanır. Amma güman etmirəm ki, bundan sonra kimsə bizə daha yaxşı təklif versin. Zaman da əleyhimizə işləyir. Üç aydan sonra bizə ən pis təklif gələcək, ya da heç onu da etməyəcəklər. Ehtimal ki, həmin da bunun nə ilə nəticələnəcəyini yaxşı anlayır və sadəcə, Ermənistanın düşdüyü hazırkı vəziyyətlə barışmaq istəmir. Nəyin bahasına olursa-olsun, itirdikləri mövqeyi geri qaytarmaq üçün çalışan erməni siyasətçilər bu cür təxribatçı bəyanatlar verməklə erməni cəmiyyətində çaşqınlıq yaradırlar. Bakı isə hələ ki, səbir edir və belə davam edərsə, Ermənistan daha ağır vəziyyətlərlə qarşı-qarşıya qalmalı olacaq. Hətta xəritədən bu dövlətin adının silinməsinə qədər...

***Afət Tahirqızı***




# Küveyt mediası: ”Ermənilər çar Rusiyası tərəfindən Azərbaycanın əzəli torpaqlarında məskunlaşdırılıblar”

Küveytin “q8-press.com” xəbər saytında “Qərbi Azərbaycana qayıdış” sərlövhəli məqalə dərc olunub. Məqalədə çar Rusiyası tərəfindən Azərbaycanın əzəli torpaqlarında məskunlaşdırılan ermənilərin ölkəmizə qarşı düşmənliyinin 200 illik tarixindən və Ermənistanın XX əsrdə azərbaycanlılara qarşı etnik təmizləmə və deportasiya siyasəti yürütməsindən bəhs olunub: “Ermənilər məskunlaşdıqları ilk gündən Azərbaycan toponimlərini dəyişməyə başlayıb, münbit əraziləri ələ keçirməyə çalışıb, əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırıblar. Azərbaycanlılara qarşı etnik dözümsüzlük çar Rusiyası süqut etdikdən sonra da davam edib”.










Məqalədə, həmçinin soydaşlarımızın Qərbi Azərbaycandan zorla çıxarılmasının tarixi təsvir edilib, Prezident İlham Əliyevin ötən ilin 24 dekabr tarixində Qərbi Azərbaycan İcmasının ziyalıları ilə görüşü yada salınıb. Yazıda dövlət başçımızın Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, Qərbi Azərbaycan İcmasının indiki Ermənistana qayıdışına dair hüququnun beynəlxalq müstəvidə reallaşdırılması istiqamətində tövsiyələri yer alıb.

Qərbi Azərbaycan İcmasının son dövrdəki aktiv fəaliyyəti, Qərbi Azərbaycana “Qayıdış Konsepsiyası” haqqında da məlumat verilib. “Konsepsiya indiki Ermənistan ərazisindən zorla çıxarılmış azərbaycanlıların geriyə qayıtması üçün İcmanın həyata keçirəcəyi fəaliyyətin məqsədləri, prinsipləri, hazırlıq və icra tədbirləri üçün ümumi çərçivəni müəyyən edir. Konsepsiya beynəlxalq hüquqa, aidiyyəti dövlətdaxili hüquqa, tarixi faktlara əsaslanır, ədalətin və sülhün bərqərar olunmasına xidmət edir”, - deyə məqalədə qeyd edilib.

***Mətləb***

# Böyük QAYIDIŞ: YENİDƏN QURULAN FÜZULİ




***44 gün davam edən Vətən müharibəsində Azərbaycan Ordusu işğal altında olan ərazilərimizi düşməndən azad edərək tariximizə Qələbə yazdı. Bu gün Azərbaycan torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Azərbaycan ordusunun əzmi, qətiyyəti, peşəkarlığı, vətənpərvərliyi təcavüzkar erməniləri torpaqlarımızdan təmizlədi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin birgə imzaladığı bəyanatla, 10 noyabr 2020-ci il tarixində Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Əlbəttə ki, rəşadətli ordumuzun bölmələrinin işğaldan azad olunan rayonlarda Azərbaycan bayrağını qaldırması bizlərə fəxarət hissini yaşatdı. 30 ilə yaxın idi ki, Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. Artıq məcburi köçkünə dönmüş soydaşlarımızın üzərindən bu statusun götürülməsi hər kəsin sevincinə səbəb oldu.***



44 günlük Vətən müharibəsində ordumuz qələbə tariximizi yazırdı. Elə ilk gündən - 27 sentyabr tarixində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, Ağdərə və Murovdağ istiqamətlərində yüksəkliklər, 3 oktyabrda Tərtər rayonunun Suqovuşan və Talış kəndləri, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi, 4 oktyabrda Cəbrayıl şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri işğaldan azad olundu. Hər gün qələbə sevinci ilə yaşayırdıq. Azad olunan torpaqlarımızın sədasını hər gün eşitdik. 44 günün hər günü bizim üçün qəhrəmanlıq tarixi oldu.

Məğrurluq, ucalıq gətirdi xalqımıza. "Otuz il ərzində Ermənistan rəhbərliyi "güclü ordusu" haqqında uydurmalar ortalığa atırdı, "yenilməz Ermənistan ordusu" barədə miflər yaradırdı. Haradadır bu "yenilməz Ermənistan ordusu?". Görün, necə qaçır bizim qabağımızdan. Bu, mif idi, bu, yalan idi. Bunu biz yerə vurduq", - deyə dövlət başçısı bildirmişdir. Ardıcıl olaraq Azərbaycan Prezidenti, Ali Baş Komandan bizə qələbə xəbərlərini çatdırırdı. Böyük həyəcanla gözləyirdik. Onlarla qəsəbə və kəndlərimizin, eləcə də şəhərlərimizin azad olunmasının xəbərini yaşamaq xoşbəxliyini yaşayırdıq. 17 oktyabr tarixi. Bu gün isə Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğaldan azad olundu. Hər kəs bu sevinci göz yaşları ilə qarşıladı və yaşadı. Əlbəttə ki, Füzuli əməliyyatı Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsində cənub-şərq cəbhəsində baş vermiş ən əhəmiyyətli döyüşlərdən biri kimi tarixə düşdü. Bu qələbənin qazanılmasında Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. 1993-cü il 23 avqust tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan Füzulinin 27 illik həsrətinə son qoyuldu.

### "FÜZULİ ŞƏHƏRİ DEYƏNDƏ, ƏLBƏTTƏ, BİZ HAMIMIZ BİLMƏLİYİK Kİ, ŞƏHƏRDƏN BİR ŞEY QALMAYIB, ƏSƏR-ƏLAMƏT QALMAYIB, BİR DƏNƏ DƏ SALAMAT BİNA QALMAYIB"

Cənab Prezident onu da bildirmişdir ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi: "Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir".

1988-ci ildən başlayan Ermənistan təcavüzünə qarşı mübarizədə minlərlə füzulili döyüşmüş, yüzlərlə füzulili şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Füzulinin 1.100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Füzuliyə erməni təcavüzü nəticəsində 36.361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Müharibənin əsas ağırlığını Füzuli şəhəri Yağlıvənd, Dövlətyarlı, Qacar, Divanalılar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Govşad, Xələfşə, Mollavəli, Xatunbulaq kəndlərinin əhalisi çəkmişlər. 23 Avqust 1993-cü ildə Füzuli Ermənistan ordusu tərəfindən işğal olunmuşdur. 55 min nəfərə yaxın füzulili öz doğma torpaqlarından qovulub. Lakin Azərbaycan ordusunun 1994-cü ilin dekabr ayında başlatdığı Horadiz əməliyyatı nəticəsində işğal olunmuş 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi işğaldan azad edildi. Azərbaycan ordusu daha sonra Füzuli şəhərinin işğaldan azad olunması üçün hücuma keçsə də, bu əməliyyat uğursuzluqla nəticələndi.

### FÜZULİ ŞƏHƏRİNƏ KÖÇ KARVANI – ƏZƏLİ TORPAĞA QAYIDIŞ

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri və görülən işlərlə tanışlıq bu ərazilərin tezliklə abadlaşmasından xəbər verir. Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirakı əlbəttə, burada yeni həyatın qaynar bir dövründə olduğunu göstərir. Bununla yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyevaya və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, xanımı Ziroatxon Mirziyoyeva Füzulidə görülən işlərlə bağlı məlumat verilib. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərinin Baş planı ilə tanış olublar. Füzuli şəhərində MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüş də keçirilib.

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Füzuli də abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə, eləcə də Laçına köç yola salındı. İnsanların doğma yerlərdən səsləri eşdilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur.

Bildiyimiz kimi, Ağdamda Xıdırlı kəndinin dövlət başçısı tərəfindən ötən il təməli qoyulmuşdur. Ağdam şəhərinin mərkəzindən 3 kilometr məsafədə yerləşən Xıdırlı kəndində 5990 nəfərin (1500 ailə) məskunlaşması planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 418 hektardır. Burada məskunlaşacaq əhalinin yaşayış yükünü nəzərə alaraq, məhəllələrin salınmasının birinci mərhələsi üçün 160 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 2951 nəfərin köçürülməsi üçün 719 fərdi evin tikilməsi planlaşdırılır. Kənddə əhalinin məşğulluğunun təmin edilməsi üçün də hər cür şərait yaradılacaq. Burada mədəniyyət və əyləncə mərkəzləri, dini, xidmət, kommersiya müəssisələri, iqtisadi inkişaf obyektləri, təhsil, idarəetmə və kənd təsərrüfatı sahələri üzrə ümumilikdə 2595 nəfərin işlə təmin olunması planlaşdırılır. Ağdam şəhərinin təsdiq edilmiş Baş planına uyğun olaraq, əhalinin səmərəli və yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması ilə yanaşı, burada işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması hədəfinə uyğun olaraq, məhəllədəki binaların enerji təchizatında alternativ enerji mənbələrindən istifadə üzrə konseptual həllər işlənmişdir. Bütün bunlarla yanaşı, Ağdam şəhərində 2-ci yaşayış məhəlləsi salınır. Ümumi sahəsi 14 hektara yaxın olan yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq. Məhəllə Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılıb. Ağdam şəhərində 3-cü yaşayış məhəlləsi də salınır. Bütün bunlala yanaşı, Ağdamın müasir infrastrukturla təmini və yenidən qurulması onun gələcək işıqlı gələcəyinə hesablanılıb. Qısa müddət ərzində görülmüş işlər yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir. Artıq Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Füzuli şəhərinə köç karvanları yola salınıb. İndiyədək Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda müvəqqəti məskunlaşmış bir neçə ailə doğma yurdda yaşamağa başlayıb. Burada onlar üçün yaradılan rahat və firvan həyat əzəli sakinləri yeni işıqlı həyata qovuşdurub.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan-Özbəkistan münasibətlərinin tarixində yeni səhifə açılır

***Bu gün böyük ailə olan türk dünyası birliyi, həmrəyliyi ilə diqqətdədir. Reallıq budur ki, tarixi Zəfərimizdən sonra bu birlik daha da möhkəmlənib. Bunu türkdilli ölkələrin dövlət başçılarının qarşılıqlı səfərləri, əməkdaşlığın coğrafiyasının genişlənməsində, həmçinin əlaqələrin daha da dərinləşməsində hüquqi baza rolunu oynayan sənədlərin imzalanması da təsdiqləyir.***



Avqustun 22-də Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ölkəmizə dövlət səfəri edib. Məlum olduğu kimi Şavkat Mirziyoyev ötən ay Özbəkistanda keçirilən prezident seçkilərində xalqın növbəti dəfə etimadını qazanaraq yenidən Prezident seçildi. Bu səfərin özəlliyi ondadır ki, cənab Şavkat Mirziyoyev Prezident seçildikdən sonra ilk səfərini məhz Azərbaycana etdi. Prezident İlham Əliyev və onun özbəkistanlı həmkarı Şavkat Mirziyoyev mətbuata bəyanatlarında bu mühüm məqamı xüsusi olaraq diqqətə çatdırdılar ki, Azərbaycan və Özbəkistan iki yaxın xalq, iki yaxın ölkədir. Dövlət başçılarının şəxsi münasibətləri əlaqələrin yeni mərhələyə yüksəlməsini şərtləndirir. Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə bildirib.

Vüqar Rəhimzadə diqqəti iki dost ölkənin prezidentlərinin təkbətək və geniş tərkibdə keçirilən görüşlərinə yönəldərək bildirib ki, səfər çərçivəsində müxtəlif sahələr üzrə ümumilikdə imzalanan 20 sənəd əlaqələrin gələcək inkişafı barədə aydın təsəvvür yaradır. Bu sənədlər arasında Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin imzaladıqları "Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının yaradılması haqqında Müqavilə"ni xüsusi qeyd etmək istərdik. Bu sənəd həm ölkələrimiz arasında qədim tarixə malik münasibətlərin bu gün yüksək səviyyədə olduğunu, həm də ikitərəfli əməkdaşlığın gündəliyinin kifayət qədər zənginliyini nümayiş etdirir. Bu mühüm məqam da daim önə çəkilir ki, dahi özbək mütəfəkkiri Əlişir Nəvai öz "Xəmsə"sini Nizami Gəncəvinin "Xəmsə"sindən ilhamlanaraq qələmə alıb. Daşkənd və Bakı şəhərlərində Nizami Gəncəvi və Əlişir Nəvainin abidələrinin ucaldılması, paytaxt Bakının küçələrindən birinə dünya şöhrətli astronom Mirzə Uluqbəyin adının verilməsi azərbaycanlılar və özbəklər arasında tarixən mövcud olan qarşılıqlı marağın və hörmətin parlaq nümunələrindən biri kimi qeyd edilir. Özbəkistan Prezidentinin ölkəmizə səfəri çərçivəsində Füzuli rayonuna gəlməsi, məhz özünün təşəbbüsü ilə Füzulidə inşa olunan və Mirzə Uluqbəyin adını daşıyan 1 nömrəli tam orta məktəbin açılış mərasimində iştirakı da möhkəm təmələ əsaslanan dostluğumuzun, qardaşlığımızın uğurlu gələcəyinin əyani təsdiqlərindəndir.

YAP Xətai rayon təşkilatının sədri bildirib ki, dövlət başçısı İlham Əliyev Şavkat Mirziyoyevin şəxsi təşəbbüsü ilə Füzulidə tikilən və səfər çərçivəsində açılışı olan məktəbi Qarabağın bərpası işində xarici dövlətin ilk hədiyyəsi kimi dəyərləndirdi. Bu, eyni zamanda, qardaşlığın, həmrəyliyin, dəstəyin nümunəsi kimi qeyd olundu. Dövlət başçısı İlham Əliyev belə bir əminliyi də ifadə etdi ki, bu, təkcə təhsil ocağı deyil, eləcə də dostluğumuzun və qardaşlığımızın daha bir mərkəzi olacaq. Özbəkistan Prezidentinin bu səfərinin ölkələrimiz arasında münasibətlərin tarixində tamamilə fərqli, olduqca əhəmiyyətli və yaddaqalan səhifə açacağını şərtləndirən xeyli məqamlar var.

Vüqar Rəhimzadə böyük qürur hissi ilə vurğulayıb ki, Füzuli və Zəngilan Beynəlxalq Hava limanlarının qapısını dünyaya açan Azərbaycan qonaqlarını 30 ildən sonra tarixi sahibinə qovuşan torpaqlarda qarşılamaqdan məmnunluq hissi keçirir. Artıq bu ərazilərimizdə yeni həyat başlayır. Özbəkistan Prezidentinin Füzuli rayonuna səfəri soydaşlarımızın ilk mərhələsinin bu torpağa qayıdışına təsadüf etdi. Füzuli Beynəlxalq Hava Limanında Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin və xanımı Ziroatxon Mirziyoyevanın Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qarşılanması işğaldan azad edilmiş ərazilərimizin həyatında tarixi hadisədir.

Hazırda Böyük Qayıdışın sevincini yaşayan füzulililər Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin və xanımı Ziroatxon Mirziyoyevanın bu torpaqda inşa edilən məktəbin açılışında iştirak etmələrindən, həmçinin dövlət başçılarının Füzuli şəhərindəki MİDA yaşayış kompleksində yeni evlərə köçürülmüş sakinlərlə görüşlərindən qürur hissi keçirirlər. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Füzuli şəhərinin Baş planı ilə də tanış oldular. Dost ölkənin Prezidentinin işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa işləri ilə yaxından tanış olmaq istəyi həmrəyliyimizin, qardaş dəstəyinin göstəricisidir.

YAP Xətai rayon təşkilatının sədri türk dünyasının birliyinə böyük töhfə olacaq bu səfərin ayrı-ayrı məqamlarına xüsusi diqqət çəkərək belə bir ümumiləşdirmə aparıb ki, səfər zamanı Azərbaycan-Özbəkistan münasibətlərinin yeni mərhələdə konturları təqdim edildi.

# "14 maddədən ibarət olan sənəd çiy, əskik və qərəzlidir"

***"Ermənistan mediasında diqqətçəkən bir sənədi dərc edilib. Belə ki, sənəd Rusiyanın Qarabağla bağlı təklifləri kimi təqdim edilib. 14 maddədən ibarət olan sənəd "Azərbaycan SSR-nin keçmiş Dağlıq Qarabağ Vilayəti ərazisində erməni əhalisinin təhlükəsizliyinin və hüquqlarının Azərbaycan Respublikasının qanunvericliyinə uyğun olaraq təmin edilməsinin əsas prinsipləri və parametrləri" adlanır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Turan Rzayev deyib .***



Onun sözlərinə görə, sənədlə bağlı ən diqqətçəkən məqam Rusiya xarici işlər naziri Sergey Lavrov tərəfindən hazırlanmasıdır: "Sənəddə əksini tapan 14 maddə cəlbedici görünsə də Azərbaycanın xeyrinə deyil. Hətta deyərdim, perspektivdə Azərbaycanı 1990-cı illərin siyasi xaos vəziyyətinə qaytara bilər.

**1.** Qanun qarşısında bərabərlik prinsipinin qorunması, etnik, linqvistik və ya dini və digər əlamətlərə görə ayrı-seçkiliyin istisna edilməsi – Prinsip etibarilə bu maddədə qeyri-adi heç nə yoxdur. Azərbaycanda yaşayan etnik azlıqlar onsuz da dil, din ayrı-seçkiliyinə məruz qalmır. Əksinə, bütün bu və digər azadlıqları Azərbaycan konstitusiyası ilə qorunur. Yəni bu maddəni məqbul saymaq olar

**2.** Erməni əhalisinin kompakt yaşadığı ərazilərdən məcburi/könüllü köçürülməsinin qarşısının alınması - bu maddənin müzakirəyə və düzəlişə ehtiyacı var. Xüsusilə də, "könüllü köçürülmə" hissəsi obyektiv deyil.

Azərbaycanın onsuz da erməni əhalisinin kompakt yaşadığı ərazilərdən məcburi köçürmək kimi niyyəti yoxdur. Lakin onların könüllü köçürülməsi gerçəkləşə bilər.

Belə ki, 30 ildən artıqdır öz torpaqlarından didərgin düşmüş Azərbaycan vətəndaşları var. Bu şəxslərin qanuni evlərində hazırda qanunsuz şəkildə erməni əhali məskunlaşıb. Məcburi köçkünlərin öz evlərinə qayıtması fonunda ermənilər başqa ərazilərə köçürülməsi istisna deyil.

**3.** Məhkəmə qərarı ilə hərbi cinayətlərdə təqsirli bilinən şəxslər istisna olmaqla, yerli hakimiyyət orqanlarında və silahlı birləşmələrdə iştirak etmək adı ilə erməni əhalisinin təqib edilməsinin, cəzalandırılmasının və hüquqlarının hər-hansı məhdudlaşdırılmasının qanunla qadağan edilməsi – bu maddə də hardasa məqbul sayıla bilər. Prinsip etibarilə Prezident İlham Əliyev separatçılara silahı könüllü surətdə yerə qoyacağı təqdirdə amnistiyadan yararlana biləcəklərini açıqlayıb.

Bununla belə rəsmi Bakının əlində 500 nəfərlik siyahı var ki, bu şəxslərə heç bir amnistiyanın tədbiqi mümkün deyil. Vaqif. Xaçaturyan, Rəşid Beqlaryanın həbsi buna misal ola bilər.

**4.** Azərbaycan Respublikasının qanunvericilik, məhkəmə və icra hakimiyyəti orqanlarının, o cümlədən, polis və prokurorluq orqanlarının respublika, rayon və şəhər strukturlarında erməni əhalisinin proporsional şəkildə təmin olunması – hesab edirəm, bu maddənin də bütövlükdə qəbulu mümkün deyil. Ermənilər Azərbaycan cəmiyyətinə inteqrasiya olsa belə qarşılıqlı etimad, güvənin birdən-birə yaranması mümkün deyil. Belə olan təqdirdə polis və prokurorluq orqanlarının respublika, rayon və şəhər strukturlarında erməni əhalisinin təmsili real deyil. Ən yaxşı halda bu Xankəndi və ermənilərin kompakt yaşadığı qəsəbə rayonlara şamil edilə bilər.

**5.** Erməni əhalisi ilə bağlı milli, regional və yerli səviyyədə qərarların işlənib hazırlanmasında və qəbulunda iştirak – Qarşılıqlı etimad və güvən yaranacağı təqdirdə bu maddəni də məqbul sayıla bilər.

**6.** Dövlət qurumlarında, o cümlədən, rəsmi yazışmalarda və işgüzar işlərdə, eləcə də ermənilərin çoxluq təşkil etdiyi yaşayış məntəqələrinin ictimai yerlərində Azərbaycan dili ilə yanaşı, erməni dilindən də sərbəst şəkildə istifadə edilməsi, erməni dilində yol nişanlarının və elanların quraşdırılması- Bu madənin də qəbulu heç bir halda mümkün deyil. Rəsmi yazışmalarda və işgüzar işlərdə, eləcə də ermənilərin çoxluq təşkil etdiyi yaşayış məntəqələrinin ictimai yerlərində Azərbaycan dili ilə yanaşı, erməni dilindən də sərbəst şəkildə istifadə edilməsi açıq şəkildə bu dilin Azərbaycan türkcəsi ilə paralel ikinci dövlət dili kimi tanınması deməkdir. Bu imtiyazın ermənilərə verməsi Azərbaycanda yaşayan digər etik azlıqlar arasında narazılıq yarada, onları küsdürə bilər.

**7.** Erməni əhalisinin şəxsi mülkiyyətinin, daşınmaz əmlak və torpaq sahələrinin toxunulmazlığı - 2-ci maddə olduğu kimi 7-ci maddə də müzakirəyə və dəyişikliyə ehtiyac var. Erməni əhalisinin şəxsi mülkiyyətinin, daşınmaz əmlak və torpaq sahələrin bir çoxu onlara qanunsuz şəkildə verilib və bir çoxunun sahibi azərbaycanlılardır. Torpaqların əsl sahiblərinin qayıtması fonunda qanunsuz şəkildə torpaq və daşınmaz əmlak sahibi olan ermənilərin zərərləri kompensasiya edilə bilər.

**8.** İctimai təşkilatların yaradılması və sərbəst fəaliyyətinin təmin edilməsi – erməni milliyətçiliyi, anarxist və radikal solcu, radikal dini-motivli, separatçı ideologiyalı ictimai təşkilatlar xaricində erməni əsilli şəxslərin bu fəaliyyəti məqbul sayıla bilər.

**9.** Erməni əhalisinin öz dini etiqadlarını sərbəst şəkildə həyata keçirməsi, dini idarə və təşkilatların fəaliyyəti üçün zəruri şəraitin təmin edilməsi, onların əmlakının toxunulmazlığı - bu maddənin də birmənalı qəbulu yolverilməzdir. Azərbaycanda heç bir etnik azlığın dini azadlığına qarışılmır. Ölkə vətəndaşları inancından asılı olmayaraq öz dini etiqadını sərbəst yaşayıb ibadətlərini sərbəst şəkildə icra edə bilir. Lakin əmlakın toxunulmazlığı məsələsi mübahisəlidir.

Ermənilər bir çox alban kilisə, monastır və içərisindəki əmlakı qəsb edib. Bu əmlakın onların əsl sahibi olan alban udi icmasına təhvili vacibdir. Gələcəkdə birlik-bərabərlik naminə iki icma arasında vahid dini ayinlər keçirilə bilər, dini məkanlar ortaq istifadə edilə bilər.

**10.** Erməni mədəniyyətinin, milli kimliyinin, tarixi-mədəni irsinin qorunub saxlanılması, erməni dilində KİV-in inkişafı – bu maddə də heç bir halda qəbul edilə bilməz. Belə ki, hər şeydən öncə bu dövlət dilinin qorunması və inkişafı haqqında qanuna ziddir. Həmin qanuna görə, Azərbaycan Respublikasında dövlət dilinə qarşı gizli, yaxud açıq təbliğat aparmaq, bu dilin işlənməsinə müqavimət göstərmək, onun tarixən müəyyənləşmiş hüquqlarını məhdudlaşdırmağa cəhd etmək qadağandır. Azərbaycan Respublikasının ərazisindəki bütün media subyektləri (mətbuat, televiziya, radio və s.), kitab nəşri və digər nəşriyyat işi ilə məşğul olan qurumlar Azərbaycan dilinin normalarına riayət olunmasını təmin etməlidirlər.

**11.** Dövlət və özəl təhsil müəssisələrində erməni dilində məktəbəqədər, ibtidai, orta və ali təhsil almaq - prinsip etibarilə Azərbaycanda gürcü, rus, türk, fransız, ingilis dillərində təhsil mümkündür. Bu mənada başda Xankəndi Dövlət Universiteti olmaqla ermənilərə məxsus özəl təhsil müəssisələri saxlanıla bilər. Lakin bu təhsil müəssisələrində Azərbaycan dilinin tədrisi də məcburi olmalıdır.

**12.** Ermənistan və Azərbaycanın ayrıca sazişi ilə Qarabağ ərazisində yaşayan erməni əhalisinin Ermənistanla təhsil, mədəni, elm, media, idman və digər humanitar əlaqələrin təmin edilməsi- Bu maddədə qeyd edilən məsələlər Ermənistan və Azərbaycanın ayrıca sazişi kimi razılaşdırılsa məqbul saymaq olar. Dünya praktikasında bunun örnəkləri var.

**13.** Erməni əhalisinin digər dövlətlərin ərazisində qanuni olaraq yerləşən şəxslərlə, xüsusən də ortaq etnik, mədəni, dil və dini mənsubiyyəti və ya ümumi mədəni mənsubiyyətini bölüşdükləri şəxslərlə sərhədi keçərək, azad və dinc münasibətlərin qurulması və saxlanılması – Azərbaycan qanunvericiliyinə görə vətəndaşların ölkə xaricinə getməsi, gediş-dönüş qaydaları ölkə xaricindəki fəaliyyətləri qanunla tənzimlənib. Bu qaydalar ermənilərə də aid olmalıdır. Qanunvericilik xaricində ermənilərin tələbi məqbul sayıla bilməz. Və bu maddə də öz növbəsində muxtariyyət ünsürlərini özündə ehtiva edir.

**14.** Erməni əhalisi üçün kənardan iqtisadi və humanitar yardımların maneəsiz alınması - bu maddənin qəbulu mümkün deyil. Azərbaycan ərazisindəki bütün etniklər kimi ermənilər də yalnız Azərbaycan mərkəzi hakimiyyətindən yardım ala. təminatı qarşılana bilər. Kənardan iqtisadi və humanitar yardımın sərbəst alınması Muxtariyyət imtiyazıdır. Bunun qəbulu yolverilməzdir.

Nəticə etibarı ilə 14 maddədən ibarət olan sənəd çiy, əskik və qərəzlidir. Bir çox maddənin düzəlişinə ehtiyac olduğu kimi daha çox ermənilərin maraqlarına hesablanıb. Sənəd bütövlükdə prosesləri 1988-ci il vəziyyətinə qaytarmağı hədəfləyir".

***Ayşən Vəli***

# "Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığı çox qlobal xarakter daşıyır"

*“Azərbaycan ilə Özbəkistan eyni kök, eyni dil və din bağına baxmayaraq dövlətlərimiz arasında diplomatik münasibətlər nisbətən gec, 2 oktyabr 1995-ci ildə yaradılmış, 1996-cı ildə Azərbaycanın Daşkənddə, iki il sonra isə Özbəkistanın Bakıda səfirliyi fəaliyyətə başlamışdır. Münasibətlərin bu qədər ləng inkişafının kökündə isə 90-cı illərin əvvəllərində hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün səbatsız fəaliyyəti olmuşdur.*



Bakı bütün müstəvilərdə bizə qardaş olan Özbəkistanla münasibətləri yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bərpa etməyə nail olmuş və bu gün cənab İlham Əliyevin iqtidarı dövründə münasibətlərimiz özünün qızıl dövrünü yaşayır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Bəhruz Məhərrəmov deyib.

Onun sözlərinə görə, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin Azərbaycana avqustun 22-də gerçəkləşən dövlət səfərinin əhəmiyyəti barədə çox danışmaq olar, lakin bu il iyulun 24-də cənab İlham Əliyevin prezident Mirziyoyevə ad günü münasibətilə zəng edərkən bu səfərin əlaqələrimizin inkişafında növbəti mərhələ olacağına əminlik ifadə edilməsi çox məqamlara aydınlıq gətirir: ”Bildiyiniz kimi, Prezident İlham Əliyevin ötən il iyulun 21-də Özbəkistana səfəri çərçivəsində ölkələrimiz arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında siyasi Bəyannamə imzalanmışdır. Cənab İlham Əliyevin mətbuat üçün birgə bəyanatda ifadə etdiyi kimi, ”Bu Saziş mahiyyətcə gələcək fəaliyyətimizin yol xəritəsidir”. Bu çərçivədə münasibətlərin həqiqətən strateji səviyyəyə çatması üçün geniş spektrli prioritetlər və birgə fəaliyyət proqramları müəyyən edilmişdir.

Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığı çox qlobal xarakter daşıyır və siyasi səviyyədən iqtisadi, sosial, humanitar sferalara qədər çoxşaxəli istiqamətləri əhatələyir. Azərbaycan və Özbəkistan arasında siyasi münasibətlər, əvvəldə də qeyd edildiyi kimi, özünün qızıl dövrünü yaşayır, ölkələrimiz istisnasız olaraq bütün platformalarda vahid mövqedən çıxış edir. Özbəkistan 30 il ərzində Ermənistanla münasibətlərində Azərbaycanın ərazi bütövlüyü və işğal faktorunu rəhbər tutub. Vətən müharibəsində Zəfərimizdən sonra Azərbaycan Prezidenti və xalqını ilk təbrik edən beynəlxalq subyektlərdən biri məhz Özbəkistan olub. Rəsmi Daşkənd özünün siyasi-mənəvi dəstəyini ifadə etmək məqsədilə quruculuq-bərpa prosesinə dəstək olaraq Füzuli şəhərində Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə Özbəkistan büdcəsinin vəsaiti hesabına 960 şagird yerlik məktəb inşa edir. Həmçinin ortaq kökümüz, dilimiz, habelə tarixi bağlarımız mədəni-humanitar əlaqələr üçün ciddi bazisdir və ölkələrdəki mövcud siyasi iradə də bu əlaqələrin dərinləşməsi üçün bütün mümkün addımları atır.

İqtisadi əlaqələrə gəlincə, statistikaya əsasən, göstəricilər ilk dövrlərlə münasibətdə azı altı dəfə artıb, lakin Prezident Mirziyoyevin ifadə etdiyi kimi, “məcmu halda onlar bizim münasibətlərimizə, imkanlarımıza uyğun gəlmir”. Bu mənada Daşkənd görüşündə liderlər Azərbaycan-Özbəkistan qarşılıqlı münasibətlərini genişləndirməyi və həqiqətən yeni platforma, yeni istiqamətlər yaratmağı vəzifə olaraq hökumətlərin üzərinə vəzifə olaraq qoydular.

Özbəkistan Prezidentinin ifadə etdiyi kimi, bu istiqamətdə ən mühüm prioritetimiz ticarəti və sənaye kooperasiyasını genişləndirməkdir. Ötən dövr ərzində bununla bağlı addımlar atılıb, ipəkçilik avtomobilqayırma, hasilat, neft kimyası, əczaçılıq, tikinti materialları və hazır tekstil malları, qida məhsulları, zərgərlik məmulatları istehsalı və şərabçılıq sahələrində onlarca yeni layihələr üzərində iş aparılıb.

Azərbaycanın Vətən müharibəsindən sonra yaratdığı yeni reallıq, habelə qlobal ziddiyyətlərin dərinləşməsi ilə Azərbaycanın regionda artan, xüsusən Prezident İlham Əliyevin zamanında uzaqgörənliklə reallaşdırdığı kommunikasiya layihələrinə daha çox zərurətin meydana çıxması fonunda, ölkəmizin qlobal nəqliyyat kommunikasiya habına çevrilməsi Özbəkistanla münasibətlərimizə də təsirsiz ötüşməyib və əməkdaşlığımızın strateji istiqamətlərindən birinə çevrilib.

Təbii ki, hədəflər böyükdür, liderlərin iradəsi isə komanda üzərinə ciddi məsuliyyət qoyub. Qeyd edilənlərin fonunda Özbəkistan Prezidentinin Azərbaycana bugünkü səfəri ötən il müəyyən edilmiş hədəflərin icrasının səmərəliliyini təhlil etmək, habelə yeni qlobal düzəndə yeni prioritetlər, birgə hərəkət planları müəyyən edilməsi üçün mühüm imkan olacaq”.

***Ayşən Vəli***

# Regiona üçüncü tərəfləri cəlb etmək cəhdləri...



NewsBlaze HOME BUSINESS ENTERTAINMENT ISSUES SOCIAL THOUGHTS USA WORLD PEOPLE

Glendale, California: Hub of Artsakh Propaganda

In the heart of Glendale, California, a city teeming with Armenian expats, the echo of a distant conflict resounds. For three decades, the complex saga of the term Artsakh, the name Armenians gave the Karabakh region of Azerbaijan, wove a web of Artsakh propaganda and discord, pitting neighbor against neighbor, Christians against Muslims, history against truth.

Driven by memories of Bolshevik aggression, the illegal occupation of Azerbaijani land by Armenia, and deep-seated ethnic tensions, Armenian-Americans have become fierce proponents of the Artsakh cause, often disregarding the internationally recognized truth of the conflict.

The most recent demonstration on the 134 Freeway that passes by the city of Glendale, serves as a vivid mark of a persistent, polarizing struggle that transcends borders, blurs realities, and fuels an unending cycle of hatred and mistrust.

Propaganda

Propaganda is a type of communication that is primarily used to influence or persuade an audience to further an agenda, which may not be objective and may be selectively presenting facts to encourage a particular synthesis or perception, or using loaded language to produce an emotional, rather than a rational response to the information being presented.

ABŞ-ın NewsBlaze xəbər portalında Kaliforniya ştatının Qlendeyl şəhərinin separatçı erməni təbliğatının mərkəzinə çevrilməsindən və Azərbaycan həqiqətlərindən bəhs edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, ABŞ-Azərbaycan Mədəniyyət Fondunun rəhbəri, jurnalist Nurit Qringerin qələmə aldığı məqalədə erməni mühacirlərin çox olduğu Qlendeyl şəhərinin mərkəzində tarixə qovuşmuş münaqişənin əks-sədasının hələ də gəlməkdə olduğu qeyd edilib. Vurğulanıb ki, çünki ermənilər Azərbaycanın Qarabağ bölgəsini “Artsax” adlandırmaqla qonşunu qonşuya, xristianları müsəlmanlara qarşı qoyublar. Bolşevik təcavüzü, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı və gərgin etnik xatirələri əsasında idarə olunan erməni əsilli amerikalılar münaqişə ilə bağlı beynəlxalq aləmdə qəbul edilmiş həqiqətə məhəl qoymadan “Artsax” davasının ifrat tərəfdarlarına çevriliblər. Onun fikrincə, Qlendeyl şəhərində ermənilərin avtomagistralı bağlamaqla aksiya keçirmələri sonsuz nifrət və inamsızlığı özündə ehtiva edən, gərgin, qütbləşən mübarizənin bariz nümunəsidir.

Ermənilərin apardıqları təbliğatı milyonlarla insanın ölümünə səbəb olan İosif Stalinin və Adolf Hitlerin təbliğatı ilə müqayisə edən müəllif xatırladıb ki, son 30 ildə Ermənistan və ABŞ-dakı erməni lobbisi məhz Azərbaycana qarşı belə nifrət təbliğatı aparmaqdadır.

Müəllif ermənilərin XX əsrin əvvəllərindən xalqımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları törətmələri, Birinci və İkinci Qarabağ savaşları, BMT-nin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən 4 qətnaməsi, Ermənistanın bu qətnamələrə məhəl qoymaması, Azərbaycan torpaqlarında tarixi, mədəni abidələrin, yaşayış məntəqələrinin məhv edilməsi, ölkəmizin yeni ərazilərin işğalına gətirəcək yeni müharibələrlə hədələnməsi kimi faktları yerli ictimaiyyətin diqqətinə çatdırıb.

Azərbaycanın əzəli torpaqlarını işğaldan azad etdikdən sonra Qarabağda yaşayan erməni vətəndaşları ilə əlaqələrin qurulması və Ermənistanla sülh müqaviləsinin imzalanması üçün ardıcıl addımlar atdığına diqqət cəlb edilib. Vurğulanıb ki, Azərbaycanın xoş məramlarına baxmayaraq, Ermənistan indiyədək sülh təşəbbüslərinə və regionda normallaşma prosesinin bərqərar olunmasına əngəllər törədir. Rəsmi İrəvanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli razılaşmanın müddəalarına əməl etmədiyi, silahlı qüvvələrini indiyədək Azərbaycan ərazisindən çıxarmadığı, Laçın yolu ilə silah-sursat daşıyan qüvvələri maliyyələşdirdiyi, Azərbaycanın təbii resurslarını qeyri-qanuni olaraq istismar etdiyi diqqətə çatdırılıb.

Azərbaycanın müstəqil dövlət kimi öz Konstitusiyasına və beynəlxalq hüququn normalarına uyğun olaraq təhlükəsizliyini, sərhədləri üzərində suverenliyi təmin etmək, Ermənistanın qanunsuz, təcavüzkar hərəkətlərinin qarşısını almaq üçün Laçında dövlət sərhədindən buraxılış məntəqəsi yaratdığı bildirilib. Bu məntəqənin Azərbaycanın Qarabağdakı erməni əsilli vətəndaşlarının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) əməkdaşlarının, eləcə də Rusiya sülhməramlı kontingentinin keçidini asanlaşdırdığı qeyd edilib.

Ermənistanın isə Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyətini davam etdirmək məqsədilə mütəmadi olaraq “regionda həyəcanlı və gərgin humanitar vəziyyət” barədə yalan məlumatlar yaydığı, təxribatlar törətməyə davam etdiyi bir daha xatırlanıb. Ermənistan tərəfinin iyulun 15-də Azərbaycan sərhədçilərini atəşə tutduğu, iyulun 26-da isə əraziyə qaçaqmal, o cümlədən yük avtomobilləri göndərməyə cəhd etdiyi kimi faktlar buna nümunə olaraq göstərilib.

Qarabağ bölgəsində yaşayan ermənilərin ehtiyaclarını ödəmək üçün Azərbaycanın Avropa İttifaqı və BQXK-nın vasitəsilə Ağdam-Xankəndi və digər alternativ yollar təklif etdiyi, Ermənistanın həmişə olduğu kimi, bütün təkliflərə qarşı çıxdığı və alternativ yollara beton sədlər çəkərək əraziyə girişi bağladığı bildirilib.

Müəllif qeyd edib ki, bu davranış ermənilərin humanitar vəziyyətlə bağlı bəyanatlarının şantaj və manipulyasiya niyyəti daşıyan siyasi hiylədən başqa bir şey olmadığını göstərir. Ermənistanın niyyəti regiona üçüncü tərəfləri cəlb etmək və sülh prosesinin iflasa uğramasına səbəb olacağı ümidi ilə coğrafi gərginliyi genişləndirməkdir.

Məqalədə erməni lobbisinin maraqlarına xidmət edən konqresmen Adam Şiffin fəaliyyəti də sərt tənqid edilib. Bildirilib ki, Konqresin üzvü qalmaq üçün erməni səslərinə çox ehtiyacı olan konqresmen Şiff ABŞ-ın etibarlı tərəfdaşı Azərbaycanla bağlı faktları təhrif edir və ictimaiyyətə qəsdən dezinformasiyalar ötürür. ABŞ Dövlət Departamenti və nüfuzlu kütləvi informasiya vasitələri isə konqresmenin bu yolverilməz davranışını ifşa etmir. Hökumət və iri KİV-lər sükan arxasında yatır...

Müəllif hesab edir ki, Ermənistanın hiylə və manipulyasiya orbitində olan, yalan bəyanatlar verməkdə davam edən, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmətsizlik edən ölkələr və beynəlxalq təşkilatlar həqiqəti eşitməlidir. Onların əsl faktları öyrənməsi Azərbaycanın daxili işlərinə qarışmaqdan əl çəkilməsi və ikili standartlar siyasətinə son qoyulması ilə nəticələnə bilər.

# “Ermənilər başa düşür ki, onların çabaları əbəsdir”

“Ermənilər dərk edirlər ki, onlar Azərbaycan ərazisində törətdikləri cinayətlərə görə cavab verəcəklər. Buna görə də artıq onlar məcburdur ki, tezliklə torpaqları tərk etsinlər. Sülhməramlılar, xüsusilə də, əldəqayırma Rusiya vətəndaşlığı alanları o ərazilərdən çıxarırlar. Çünki rus sülhməramlıları Azərbaycan ərazisində ermənilərə heç bir köməklik göstərə bilmirlər. Ermənilər 44 günlük müharibədə də çox çalışdılar ki, Rusiyanı bu konfliktə daxil etsinlər və ruslar onların əvəzinə döyüşsünlər”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.

Onun sözlərinə görə, 90-cı illərdə Rusiya rəhbərliyinin ermənilərə köməyi nəticəsində bizim torpaqlarımız işğal olundu: ”Lakin indi beynəlxalq diplomatiyanın və Azərbaycanın apardığı düzgün siyasətin nəticəsində Rusiya bu müharibəyə qarışa bilmədi. Putin də dəfələrlə bəyan etdi ki, Azərbaycan öz ərazisində müharibə aparır, ona görə də bizim bu məsələyə qarışmağa heç bir hüququmuz yoxdur”.



Politoloq sözlərinə davam edərək bildirib ki, müharibədən sonra da Azərbaycan uğurlu siyasəti nəticəsində qələbələr qazanır: ”Xüsusilə də, BMT TŞ-da



*POLİTOLOQ ŞƏRH ETDİ*

Ermənistanın irəli sürdüyü müddəalar tam iflasa uğradı. Azərbaycan diplomatik qələbə çaldı. Bundan sonra ermənilər başa düşürlər ki, onların çabaları əbəsdir. Ya Qarabağda yaşayan revanşist qüvvələr tezliklə oradan çıxarılmalıdır, ya da Azərbaycanın həyata keçirdiyi antiterror nəticəsində məhv ediləcəklər. Güman edirəm ki, yaxın günlərdə Qarabağdakı qanunsuz erməni silahlı dəstələrin çıxarılması başlayacaq. Əks təqdirdə, Azərbaycan öz ərazisində antiterror əməliyyatı aparmağa məcbur olacaq. Dövlət başçısı İlham Əliyev xəbərdarlıq edib ki, o ərazidə olan silahlı dəstələr Azərbaycan ərazisini tərk etməlidir və eyni zamanda, Qarabağda olan ”prezident”, ”parlament sədri” və s. vəzifələrindən istefa verərək rədd olub getməlidir. Orada yerli əhali azdır. Daha çox silahlı qüvvələr var. Onlar da yaxın zamanda oranı tərk etməyə məcbur olacaqlar. Cinayət törədən erməni faşistləri cəzalarını alacaqlar”.

***Ləman Sərraf***

***İnsanda ağıl, sağlam düşüncə, təmiz vicdan yaxşı şeydir. Olmadısa, vay o insanın halına. Səbəbsiz yerə deyilmir ki, milyardlarla puldan, var-dövlətdənsə həyat yolunda yoldaşın ola biləcək ağılın olsa, daha yaxşıdır. Dahi şairimiz Nizami Gəncəvi deyirdi: "İnsana arxadır onun kamalı, ağıldır hər kəsin dövləti, varı". Təəssüf ki, bugünkü müasir dünyada ağılına güvənənlərin sayı bir o qədər çox deyil. Yəni, hər cür çirkin vasitə və üsullardan istifadə etməklə var-dövlət əldə etməyə daha çox cəhdlər göstərilir. Hətta siyasi həyatda vurnuxanlar belə özlərinin bilik və bacarıqlarına deyil, kimlərinsə dəstəyinə arxalanırlar.***

# Dağıdıcı müxalifətin sonu yaxınlaşır



Misal olaraq, bu gün Azərbaycanın dağıdıcı müxalifətinin pul qazanmaq üçün hər fürsətdə xarici maraqlı dairələrlə əməkdaşlıq etmələrini göstərmək olar. Hansı ki, həmin məkrli xarici dairələr Azərbaycanın beynəlxalq aləmdə qazandığı yüksək imicini ləkələməyə, qazandığı uğurlara kölgə salmağa çalışırlar. Dağıdıcı müxalifət həmin xarici qüvvələrin Azərbaycan dövlətinə olan qərəzli münasibətini bildikləri halda onlarla əməkdaşlıq edirlər. Nədən ki, onlardan maddi və mənəvi dəstək alırlar. Təbii ki yerdə ağıla böyük zərurət var. Ağıllı insan dövlətinə, xalqına qarşı düşmən münasibət sərgiləyən qüvvələrlə əməkdaşlıq etməz. Görünür, dağıdıcı müxalifət üçün ağıldan öncə puldur. Dəfələrlə sübuta yetirilib ki, Əli Kərimli, Tofiq Yaqublu, Cəmil Həsənli və digərləri müxtəlif xarici fondlardan maddi dəstək alıblar. Təbii ki, alınan pullara görədir ki, T.Yaqublu və C.Həsənli eynən Koçaryan, Sarkisyan, Vardanyan kimi danışır. Onlar deyirlər ki, Azərbaycan Qarabağda "Humanitar fəlakət" yaradır. T.Yaqublu və C.Həsənli də sayıqlayırlar ki, Azərbaycan dövləti Laçın sərhəd keçidi məntəqəsini humanitar yüklərin daşınması üçün açmalıdır. Ə.Kərimli isə daha çox müxtəlif gülüş doğuran, təəccüb yaradan açıqlamaları ilə gündəmə gəlməyə, diqqət mərkəzinə çevrilməyə çalışır.

### Ə.Kərimlinin öz liderinə qarşı etdiyi riyakarlıqlar, pisliklər heç zaman səhifələrdən silinməyəcək

Bir zaman AXCP-nin qurucusu Əbülfəz Elçibəyi gözdən salan, tədbirlərdə çıxışlarını məsxərəyə qoyan Ə.Kərimli bu gün onun adı ətrafında müsbət fikirlər söyləyir. Məsələn, sosial şəbəkədə paylaşdığı statusunda Ə.Elçibəy haqqında tərifli fikirlər bildirir: "Bu gün Əbülfəz Elçibəyi məzarı başında hörmətlə yad etdik. Xalqımızın yaxşı sözü var: pisi görməsən, yaxşının qədrini bilməzsən. Biz də indi başa düşürük ki, ölkədə demokratik, sadə, təvazökar prezidentin olması nə böyük fürsət imiş. Allah Əbülfəz Elçibəyə rəhmət eləsin". Burada deyiblər, "utanmasan oynamağa nə var ki". Zamanında Ə.Elçibəyi "Azadlıq" qəzetində və digər mətbu orqanlarda təhqir etdirən, hətta onun zəhərlənməsində əli olan Ə.Kərimli indi özünü qatı Elçibəyçi kimi təqdim etməyə çalışır. Fakt isə inkar olunmazdır. Yazılanlara və deyilənlərə görə, Ə.Elçibəyin zəhərlənməsini Ə.Kərimli həyata keçirib. Ə.Elçibəyin yaxın dostlarından olan və siyasi arenada bayraqdar kimi tanınan Elman Türkoğlu Əbülfəz Elçibəyin zəhərləndiyini bildirib: "Bu işdə əsas rolu Əli Kərimov oynayıb. Bu oyunun içində isə bir sıra insanlar vardı. O vaxtlar AXCP-nin daxilində yaradılmış "klassik"lər birbaşa Əbülfəz Elçibəyi, "Yurd" isə Əli Kərimlini müdafiə edirdi. "Yurd"çuların əsas məqsədləri Əli Kərimli partiyanın rəhbəri postuna gətirilməsi idi. Həmin vaxt partiyada Əli Kərimliyə yaxın qüvvələrin hər vəchlə Elçibəyi rəhbərlikdən uzaqlaşdırmağa, Əli Kərimovu AXCP-nin rəhbəri postuna gətirməyə çalışırdılar. Deyirlər ki, guya Ordubadda soyuqdəymədən xəstəlik tapdı. Söylənilənlər yalandır. Bəzi şəxslər Elçibəyin guya 1991-ci ilin 20 avqustunda yaralandığını əsas gətirərək bunun da təsirli olduğunu ortaya atırlar. Guya həkimin onu müalicə etməsinə imkan verilməyib. Bu versiya da həqiqətə uyğun deyil. Əbülfəz Elçibəy Əli Kərimlinin ad günündə - 1999-cu ilin 28 aprelində zəhərlənib". E.Türkoğlu Əbülfəz Elçibəyin Əli Kərimlinin evində zəhərləndiyini bildirib: "Hafiz Hacıyev düz deyir, ad günü mərasimində. Amma Elçibəyin yox, Əli Kərimlinin doğum günü tədbirində. Zəhərlənmə Əli Kərimlinin evində baş verdi. Çünki onu hansısa şadlıq sarayında, restoranda həyata keçirmək çətin idi. Əgər şadlıq sarayında baş tutsaydı, işə aşpaz da qatılmalı idi. Bu isə sirrin açılması baxımından təhlükəli idi. Amma planı ev şəraitində həyata keçirmək daha məqsədəuyğun idi. Zəhəri İrandan gətirmişdilər. Onun uzunmüddətli dozası var".

E.Türkoğlu onu da qeyd edib ki, hələ Elçibəyin cənazəsi Türkiyədən gətirilməzdən öncə, 2000-ci ilin avqustunda qəzetlərə müsahibə verərək bildirdim ki, Əbülfəz bəyi zəhərləyiblər. İnanmırsınızsa, həmin dövrün qəzetlərini açıb, baxa bilərsiniz. Bununla bağlı müsahibələrim həmin dövrdə "Şərq", "Yeni Müsavat" qəzetində dərc olunub. "Ədalət" qəzetindəki müsahibəni məndən ozamankı Baş redaktor Aqil Abbas özü almışdı. Həmin müsahibədə bütün fikirlərimi hissə-hissə bildirmişəm. O vaxt elə bir dövr idi ki, bu işin üstünü ört-basdır etmək üçün bəzi adamlar Əli Kərimlinin müdafiəsi üçün danışırdılar. Bəzi şəxsləri öyrədib danışdırırdılar. Mən onların layiqli cavablarını verib, yerlərində otuzdurdum".

Bir sözlə, faktlar və sübutlar göz qabağındadır. Aylar, illəri əvəzləsə də məkrli, ziyankar əməllər unudulmur və yaddan çıxmır. Ə.Kərimlinin də öz liderinə qarşı etdiyi riyakarlıqlar, pisliklər heç zaman səhifələrdən silinməyəcək. Nəhayət, bir gün etdiklərinə görə, cavab verməli olacaq.

***İ.ƏLİYEV***

# Barber shop



**Mətanət Məmmədova**

Bu səhər küçəmizdə bir kişiylə rastlaşdım. Gördüm ey, ora baxır, bura baxır, sözlü adama oxşayır. Gözləri bir nəfər axtarır ki, sualını verib cavabını ala. Camaat da elə sürətlə ötür ki, kişi çatdırıb soruşa bilmir.

Yanından ötəndə hiss etdim ki, məndən nə isə soruşmaq fikri yoxdur, lakin ağsaqqal kişi olduğu üçün mən dayanıb, "əmi, sizə nə lazımdır",- dedim. Əmi də dedi ki, ay qızım, rayondan gəlmişəm, burada qızımgildə qonağam. Dünən enmişdim bir hava alam, bir də görüm buralarda bərbər var, saç-saqqalımı düzəltdirəm. Bax elə bu küçə idi, burada mən bərbər gördüm, indi nə qədər baxıram görmürəm axı.

Həmin dəqiqə anladım bu əminin problemini. Axı bizim küçənin həm o başında, həm də bu başında bərbər var. O başdakının qarşısında "Bərbər", bu başdakının qarşısında isə "Barber shop" yazılıb. Bu küçə də dairəvi şəkildədir. Nabələd adam bunu bilmir, ona görə də bu kişi kimi qalır məəttəl. Anladım ki, əmi dünən o başda gəzirmiş, orada "Bərbər" görüb, düşünüb ki, sabah gəlib saç-saqqalımı düzəltdirərəm. Bu da həmin sabah, kişi nə qədər axtarır, tapmır. Yaşlı adamdı da, nə etsin.

Hə, kişi dayanıb düz "Barber shop"un qarşısında, deyir mən dünən bax elə burada gördüm "Bərbər"i, ay bala, indi axı burada ayrı şey yazılıb. Başladı hərifləyib oxumağa: bu nə deməkdir axı? 70 yaşim var, birinci dəfədir bu sözə rast gəlirəm. Ay bala, deyəsən, buranı səhv yazıblar ey. Gözlərindən yayınıb yəqin.

Məsələ aydın idi. Dedim ki, ay əmi, bərbər lazım deyil sənə, elə buradır da. Əmi də dedi ki, yox ey, mən dünən axı burada bərbər görmüşdüm. Dedim ay əmi, saç-saqqalını kəsdirmək istəmirsən? Dedi, hə. Dedim, gəl bu qapıdan keç içəriyə, burada etsinlər.

Əmi baxır mənə. Həm də təəccüblə baxır. Sanki mən onu aldadırmışam kimi baxır...

Yazıq kişi, vallah, o qədər narahat oldum ki. Ay qardaş, yaşlı adamdı da, bunun başına niyə bu oyunları açırsınız? O "obyektin" qarşısına "Bərbər" yazanda nə olardı ki? Qoy biri küçənin o başında, biri də bu başında olsun da, nə olacaq ki...

Vallah, mən hər gün o küçədən keçirəm, "Bərbər"də "Barber shop"dən çox adam olur. İndi bu bərbərlərin "dilini" dəyişəndə nə olur ki?

Bu kişi də rayondan durub gəlib şəhərə qonaq. Qalıb "Bərbər"lə "Barber shop"un arasında, anlaya da bilmir ki, ikisi də əslində eyni yerdir, sadəcə biri "intelligentni" yazdırıb adını.

Etmədim tənbəllik. "Barber shop"un qapısını döymək istəyəndə kişi, yox-yox, ay bala, bura ora deyil. Mənə bura lazım deyil, dedi və üzünü çevirib getmək istəyəndə, dedim ay əmi, gəl, gəl, gedək. Düşdüm kişinin yanına, düz getdik çıxdıq "Bərbər"ə. Kişi başını yuxarı qaldırıb "Bərbər"i görmədi, başladı uşaq kimi sevinməyə. İndi dayanmadan-durmadan mənə duadır ki, edir:

-Ay qızım, səni xoşbəxt olasan. Mən dünən buranı görmüşdüm bax. Elə səhərdən də buranı axtarırdım. Hə, bax, mən bura getmək istəyirəm.

Kişi ilə sağollaşdım, o bərbərə getdi, mən də geriyə döndüm. Gəlib o "Barber shop"un qarşısından keçəndə başımı qaldırdım, o lövhəni bir də oxudum və başladım öz-özümə danışmağa: can ay dilim, gözəl dilim, dərdli dilim. Kaşki dilin olardı, dil açıb dərdlərindən danışardın. Bəlkə sənə yazığı gələn bir adam olardı...

# "Separatçılara qarşı antiterror əməliyyatı keçirilə bilər"





"Erməni separatçılarının Ağdam və Xocalı istiqamətlərində əl atdıqları təxribatlarda bir- birini tamamlayan, ancaq həm də fərqli maraqlar var. Əvvəla Ağdam ətrafında vəziyyətin deskalasiyasına getməklə seperatçılar rəsmi Bakının Laçın dəhlizinə alternativ olaraq göstərdiyi Ağdam-Xankəndi yolunun heç də təhlükəsiz olmaması barədə iftira və yalanla dolu informasiyanı beynəlxalq birliyə sırımaq istəyirlər." Bunu politoloq Elşən Manafov "Səs" qəzetinə açıqlamasında deyib.

Onun sözlərinə görə, təxribatları ilə separatçılar düşünürlər ki, Azərbaycanı bu yolun alternativliyi ilə bağlı məsələyə yenidən sövq edə bilərlər: "İkincisi isə, gərginliyin artırılması ilə separatçılar Rusiya sülhməramlılarını silaha əl atmaga sövq etmək istəyirlər. Burada isə fərqli maraqlar var, birincisi, sülhməramlıları münaqişə tərəfləri arasında əməliyyatlara cəlb etməklə Azərbaycanla Rusiya arasında münasibətlərdə gərginlik yaratmaq, Rusiyanın guya ki, separatçıların tərəfində çıxış etməsi ilə bağlı illyuzalar yaratmaqla Azərbaycan ictimaiyyətində antirusiya ovqatını qızışdırmaq, Rusiya sülhməramlılarının beynəlxalq hüquqa nəzərən rəftar etdikləri halda isə Rusiyanı Azərbaycanpərəst mövqe sərgiləmək də ittiham etməklə rəsmi İrəvanın sifarişini yerinə yetirmək, İrəvana isə bu səpkili ismarıc hava və su qədər vacibdir, zira onun Qərbdəki havadarları artıq neçə ildir ki, Paşinyan rejimindən Rusiya ilə münasibətlərə yenidən, Qərbin tələqin etdiyi maraqlar müstəvisindən baxmağı və müvafiq qərarlar qəbul etməyi tələb edirlər. Nəhayət, eskalasiyanın güclənməsi Qarabağdakı separatçı rejimin öz daxilində Arutyuryan və Vardanyan tərəfdarlarının öz aralarında gedən mübarizənin reallıqlarından da irəli gələ bilər. Bütün hallarda bu rəsmi Bakıya separatçı rejimə qarşı antiterror əməliyyatının həyata keçirilməsi ilə bağlı qərarı qəbul etməyə hüquqi əsas verir, BMT TŞ-dəki məlum müzakirələrdən sonra rəsmi Bakının belə bir qərarı qəbul edəcəyi yaxın perspektivin gündəmi olacaq".

***GÜLYANƏ***



***Bəhsəbəhs sözünün lüğəti mənası bir-biri ilə yarışmaq, bir-birinin acığına kimi ifadə olunsa da, lakin bəziləri üçün xarakterik olan bu hisslərin altında paxıllıq və həsəd yatır. Yəni, bəhsəbəhsliyi paxıllıq və həsəd meydana gətirir. Bəhsəbəhs, əslində, özündə yaxşı tərəfləri də o mənada cəmləyir ki, məktəbdə biri dərslərini yaxşı oxuyanda, müəllim onu tərifləyəndə o biri şagird də yaxşı oxumağa cəhd edir. Ona görə ki, müəllim onun da haqqında yaxşı sözlər söyləsin. Və yaxud da bir şəxs çalışdığı kollektivdə yaxşı fikir formalaşdırırsa, rəhbərlik tərəfindən bu, açıqlanırsa, digərləri də təriflənmək üçün yaxşı işləməyi qarşılarına məqsəd qoyurlar. Düzdür, bunların hər biri az da olsa həsəd hissindən qaynaqlansa da, lakin müsbət əməllərə xidmət edir. Bu, məsələnin bir tərəfidir. Lakin bu gün toxunmaq istədiyim mövzu başqadır: bəhsəbəhsliyin ömrü zamanla mişar kimi yavaş-yavaş doğrayıb başa çıxması barədədir.***



# Bəhsəbəhs-ömrün mişarı...

### Xüsusilə də müasir dövrdə...

Çünki əvvəllər nə telefon vardı, nə kompüter, nə də sosial şəbəkələr. Hazırda isə bunların hamısı var. Və onların həyatımıza daxil olması lüğətimizə yeni sözləri əlavə etdiyi kimi, xarakterimizə də yeni xüsusiyyətlər bəxş edib. Çünki dünənədək əgər ətrafımızda tək 5-10 iş yoldaşı, qonşu, qohumda nə isə görüb həsəd və paxıllıq hissi keçirirdiksə, bu gün sosial aləmdə gördüklərimizin sayı-hesabı yoxdur. Elə məhz bu səbəblərə görə də bəhsəbəhslik hissinin də sayı-hesabı yoxdur.

Məsələn, bu gün sosial şəbəkələrdə yüzlərlə ad günü, nişan, xınayaxdı, toy videoları paylaşılır. Yüzlərlə sevgilinin, ər-arvadın bir-birinə aldıqları hədiyyələr, gəzdikləri yerlər, fotosessiyalar yer alır. Bunlara baxan minlərlə insan var. Elə bax, bu görüntülər əsasında da bəhsəbəhslik hissi aşıb-daşır. Bu hissə aludə olanlar bəzən imkanlarından çox-çox uzaqlara gedir, bəzən bu hiss bir arzuya çevrilib yenə də insanı yaşadığı aləmdən bir başqa aləmə aparır, bəzənsə mümkünsüzlük bir gənci bədbəxtliyə sürükləyir.

Elə ki, insanın qəlbinə bəhsəbəhslik hissi daxil olur, bilsin ki, ömrünə artıq bir mişar qoyuldu. Bu mişar vaxtaşırı sağa-sola hərəkətlə bir gün onun tamamilə məhv olmasına işləyir. Belə isə nə üçün bəhs edirik? Nə üçün qonşuda var, məndə də olmalıdır, qohum aldı, mən də almalıyam, iş yoldaşım etdi, mən də etməliyəm kimi fikirlərlə yaşayırıq? Nə üçün bütün bunları düşünməzdən əvvəl maddi vəziyyətimizi düşünmürük? İmkanlarımızın buna yetib-yetməyəcəyinə nəzər salmırıq?

### Çünki məntiqsiz düşünürük...

Bəli, məntiqsiz düşünürük. Elə hər şey də bu məntiqlə başlayır. Birinci içimizə həsəd hissi dolur, sonra bu, paxıllığa çevrilir. Həsəd və paxıllıq isə bəhsəbəhsin hərfi mənasıdır.

Məsələn, küçədə bir qız görürük. Əynindəki köynək iki qarışdan ibarətdir, göbək-qarın hissə görünür. Baxırıq ki, yanından keçən oğlanların çoxu ona nəzər salmamış ötmür. Düşünürük ki, məgər biz ondan çirkinik, nə üçün bizə bu qədər baxan yoxdur. Sabah evdən çıxanda blokdaca köynəyimizi yuxarı qaldırırıq. Hansı ki, bu, bizim ailə üçün qəti şəkildə qəbiledilməzdir. Lakin biz bunu ailəmizin gözündən kənarda edirik. Deməli, ən məntiqsiz bir düşüncə ilə həsəd hissinə qurban getmiş oluruq. Bu söylədiyim ən kiçik bir nüansdır. Lakin belə kiçik nüanslar elə böyük səhvlərimizin də başlanğıcı ola bilir.

Bu günlərdə sosial şəbəkələrdən birində fəaliyyət göstərən "Qadınlar klubu"ndan oxuyuram: əziz qadınlar. Sizinlə bir məsələni məsləhətləşmək istəyirəm. Dünən mənimlə həmyaşıd qohum qızlardan birinin ad günü idi. Hər ikimiz nişanlıyıq. Nişanlısı ona bahalı telefon alıb hədiyyə etdi. Lakin mənim nişanlımın belə telefon almağa imkanı yoxdur. Qərara gəldim ki, nişanımı qaytarım. Mən də belə bir imkanlı oğlanla ailə qurmaq istəyirəm.



Buyurun, bu da bizim müasir gəncliyin təfəkkürü. Düzdür, həmin klubda qızı tənbeh edənlər də çox idi, haqq verənlər də. Lakin qızın düşüncəsində, həsəd və paxıllıq hisslərində artıq mişarın onun ömrü üzərində hərəkətini görürəm. Bir telefondan ötrü nişanı atmaq nə deməkdir? Bu, qəbul edilən məsələdirmi? Görün, qızdakı paxıllıq nə dərəcədədir ki, adi bir hədiyyə ilə həyatına da, həyatındakı insana da zərbə vurmaq istəyir. Deməli, bu qız düşünür ki, kim ona bahalı hədiyyə alarsa, onunla ailə qurmaq olar? Bunun adı bəs nədir? Bahalı hədiyyələrə ərə getmək, yoxsa sevdiyin insana? Yaxşı, bəs gələcək həyatında ailədə maddi imkansızlıq yaranarsa, həyat yoldaşı işini itirərsə, belə qızların vəziyyəti necə olar? Bunlar barədə düşündükcə adam sanki bir anlıq ağlını itirmiş kimi hiss edir özünü.

### Onda var, məndə niyə olmasın?

Hər birimiz ətrafımızda yüzlərlə belə insana rast gəlmişik ki, həsəd onları məhv etməkdədir. "Onda var, məndə niyə yoxdur?" fikri ilə ömürləri mişarlanmaqdadır. Qonşu ikimərtəbəli ev tikdirdi, mənim evim onun kölgəsində qaldı. Filan qohum maşın aldı, mən ondan kəsirəm? Filan iş yoldaşım filan markadan çanta götürür, ətir alır, mənim niyə olmasın? Rəfiqəm filan markadan paltar geyinir, mən niyə geyinməyim? Qonşunun əri hər həftə arvad-uşağını gəzməyə aparır, biz niyə evdə oturmalıyıq? Qonşu hər gün evə əli dolu gəlir, mənim ərim niyə əliboş gəlməlidir? Sosial şəbəkədəki qızlar filan yerlərdə fotosessiyalar edir, mən niyə orada etməməliyəm? Qız filan maşınla gəlin getdi, mən onda niyə getməməliyəm?

Bax, yüzlərlə belə həsəd və paxıllıq üzərində köklənmiş faktlar sıralamaq olar. Lakin bu faktlar bir sual da çıxarır meydana: hamının imkanı birdirmi? Hər kəs bu sadalananları həyata keçirə bilirmi? Bilir, deyənlər olacaq, buna əminəm. Belə isə edə bilənlərdən danışaq bir qədər də. Necə edirlər, mən deyim. Siz də dinləyin.



Tanıdıqlarımdan birinin qonşunun evi ilə bağlı nə gecəsi, nə də gündüzü vardı. "Nə üçün o, evini söküb ikimərtəbəli etdi, gözəl dam örtüyü vurdurdu, həyətini təmir etdi, böyük darvaza qoydurdu? Bizim ev, gör, onun yanında nəyə oxşayır?" deyə-deyə gəliri çox da yaxşı olmayan həyat yoldaşının başını xarab edirdi. Yoldaşı da ağlını verdi bu qadının ağlına. Gedib bankdan kredit götürüb işə başladılar. Axı kredit götürməklə o qədər işi başa çıxmaq olmazdı. Bir azdan pul qurtardı, iş də yarımçıq qaldı. İndi banka kredit ödəyirlər ki, borc bitsin, yenidən kredit götürüb işə davam edələr. Qadın gördü ki, bəhs etmək "olmaq" deyil. Hələ də danışır. Lakin ta onu dinləyən kimdir. Düşünəndə, illər lazımdır ki, bunlar kredit götürə-götürə evlərini, həyətlərini qonşununkuna oxşadalar. Bu gedişlə isə qonşu üçüncü mərtəbəni tikəcək, bu qadınınsa bəhsəbəhs hissi bitməyəcək.

Başqa bir tanıdığım isə dayıoğlusu maşın alan kimi maşın sevdasına düşdü. "Niyə mən ondan kəsir oğlanam?" fikri buna ta rahatlıq vermədi. Bu da üz tutdu banklara. Kredit götürüb maşın aldı. Aldı almağına, lakin axı bu krediti ödəmək var. İndi hər ay zülmlə krediti düzəldib banka ödəyirlər, ailə isə olmazın çətinliyi ilə üz-üzə qalıb.

Bir gənc qadın vardı, tanıyırdım. "O geyimdən mənim də olsun, bu çantadan mənim niyə yoxdur" düşüncələri ilə gül kimi ailəsinə xəyanət etdi. Pis yollara düşdü və sonda ailəsi dağıldı, üç övladından ikisi əlindən alındı, biri ilə atasıgilə yollandı.

Təəssüfedici hal bundan ibarətdir ki, bəhs etməyin sonu çox vaxt bu qadının düşdüyü yollar olur. Bir gözəl paltar, ətir, çanta, ayaqqabı, bir bahalı telefon üçün mənliyindən imtina edənlər olur. Lakin maraqlıdır, bütün bu əşyaları istifadə edərkən onun əldə edilmə səbəbi bu insanları narahat edirmi, görəsən?

### Paxıllıq xoşbəxtliyi öldürür

Mütəxəssislər paxıllıq, həsəd və bəhsəbəhsin hər duyğu kimi universal və təbii bir duyğu olduğunu söyləyirlər. Bəzən təkəbbürlə bağlı olan bu hisslər incidir, qəzəb doğurur, pis tərəfimizi alovlandırır, həyat keyfiyyətimizi aşağı salır. Paxıllıq edərkən, həsəd apararkən, bəhsəbəhsə can atarkən xoşbəxtlikdən çox kənarda oluruq. Bu hisslər bizi bizdən alır, ayrı bir dünyaya qonaq edir: həm maddi, həm də mənəvi cəhətdən. Bəli, xoşbəxt olmuruq. Gözümüz kimlərinsə arxasında, fikrimiz nələrinsə yanında, beynimiz bütün bunları əldə etmək üçün yollar axtarışında ola-ola biz necə xoşbəxt ola bilərik ki?..

Bu xoşagəlməz hissləri tamamilə aradan qaldırmaq mümkün olmasa da, hərəkətlərimizlə onu qidalandırmağı dayandıra bilərik. Necə? Bir qədər dərindən və məntiqlə düşünməklə. Ona inanmağa çalışmalıyıq ki, insanlar bir-birinə bənzəmədiyi kimi, talelər də bir-birinə bənzəmir. Məhz bunları düşünməklə həm də günah sayılan bu hisslərdən kənar ola bilərik.

Allah Təala Həzrət Musaya (ə) vəhy edir: "Mənim fəzlimdən insanlara çatan şeylərə görə paxıllıq etmə. Gözlərini ona dikmə. Qəlbini onunla birgə etmə. Həqiqətən, o kəs ki, həsəd edər, Mənim nemətlərimə qəzəblənər. Mənim bəndələrim arasında böldüyüm hissələri bərabər tutar. Hər kim belə olarsa, Mən ondan deyiləm. O da Məndən deyildir".

Həsəd edən insanlar adətən əsəb xəstəliklərindən əziyyət çəkirlər. İmam Əli (ə) bu barədə buyurur: "Bədənin sağlamlığı həsəddən uzaq olmaqladır" və ya "Təəccüblüdür ki, həsəd edənlər öz bədənlərinin sağlamlığından qafildirlər".

Artur C. Brooksun "The Atlantic" saytındakı məqaləsi paxıllıqla mübarizə yollarından bəhs edir. Məqalənin ən maraqlı məqamı: " 19-cu əsr italyan şairi Dantenin "Purgatorio" (Purgatory) adlı İlahi Komediyasının 13-cü kantosunda yeddi ölümcül günahdan biri olan paxıllığın qurbanı insanların ən böyük cəzası təsvir edilir. Onların uçurumun kənarında təhlükəli bir şəkildə olduqları göstərilir. Paxıllıq gördükləri bir şeylə başladığı üçün gözləri bağlıdır. Yıxılmamaq üçün həyatda heç etmədikləri bir işi görərək bir-birlərinə dəstək olmalıdırlar. Bu, olduqca qəddar bir cəza olsa da, paxıllığın Katolik inancında On Əmrdən biri deyil, ikisi tərəfindən qadağan edilən yeganə günah olduğunu nəzərə alsaq, bəlkə də təəccüblü deyil.

Bəlkə də o biri dünyada qarşılaşacağınız cəza ilə bağlı Dantedən daha az narahatsınız. Paxıllığın, başqalarının sahib olduqları şeylərə qarşı küskün istəklərin sizə real həyatda cəhənnəmi yaşatmasına dair çoxlu sübutlar var. Paxıllığın nə olduğunu, içimizdəki sevgini necə xoşagəlməz hala gətirdiyini və ruhumuzu necə qurutduğunu hamımız bilirik. Necə olur ki, içimizdəki çirkin, qisas hissləri ilə başqasının bəxti bizimkinə nisbətən az olduğu üçün əzab çəkməkdən həzz alırıq?

Bir sözlə, paxıllıq xoşbəxtliyi öldürür. Təəssüf ki, bu, tamamilə təbii bir hissdir və heç kim ondan tamamilə qaça bilməz. Ancaq paxıllığı daha yaxşı başa düşsəniz, onu qidalandırmağı dayandırıb uçurumdan qayıda bilərsiniz.

YANAŞMA

***Mətanət Məmmədova***



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

# “Azərbaycan çox güclü və effektiv geosiyasi oyunçuya çevrilib”

*Aleksandr Razuvayev: “Azərbaycan Prezidenti İlham Əliyev Budapeştdə keçirilən görüşdə xüsusi qonaq oldu və orada olanların hər biri onunla əlaqələrin möhkəmlənməsində maraqlı idi”*



Budapeştdə Macarıstan dövlətinin yaranması münasibətilə qəbul təşkil olunub. Bir sıra nüfuzlu ölkələrin- Türkiyə, Azərbaycan, Serbiya, Özbəkistan, Türkmənistan, Qətər və Qırğızıstanın rəhbərləri dəvət olunan qonaqlar arasında olmasaydı, bəlkə də tədbir xüsusi diqqətə səbəb olmazdı. Budapeşt tədbirlərində Rusiyanı Tatarıstanın rəhbəri Rüstəm Minnixanov təmsil edib. Rəsmi qəbul və idman proqramı ilə yanaşı (liderlər Atletika üzrə Dünya Çempionatında iştirak ediblər) ikitərəfli görüşlər də keçirilib, burada mənbələrə görə, bir sıra beynəlxalq məsələlər müzakirə olunub- enerji təhlükəsizliyi, Aİ ilə əlaqələr və Ukrayna böhranı.

Politoloq Aleksandr Razuvayev ”Moskva-Baku” portalına şərhində bildirib ki, qonaqlar siyahısında azərbaycanlı lider İlham Əliyevin xüsusi rol oynaması təsadüfi deyil.

-Belə bir görüş, fikrimcə, dünyada gedən geosiyasi prosesləri əks etdirmək baxımından böyük ölçüdə indikator xarakteri daşıyır. O, başqa şeylərlə yanaşı, Rusiya ilə Qərb arasında münaqişə şəraitində ayrı dayanan “üsyançıları” topladı. Məsələn, Macarıstan Aİ-nin üzvü olsa da, Qərbin Rusiyaya qarşı siyasətini mütəmadi olaraq tənqid edir. Türkiyə Rusiya ilə sıx əlaqədə olur və öz milli maraqlarına əsaslanan müstəqil siyasət aparır.

İclas iştirakçılarının əksəriyyəti Türk Dövlətləri Təşkilatının üzvləridir. Bildiyiniz kimi, Macarıstan mütəmadi olaraq türk dövlətləri ilə tarixi bağlılığını vurğulayır və TDT-də müşahidəçi kimi çıxış edir.

Tatarıstan rəhbərinin qəbulda iştirak etməsi həm də Rusiyanın maraqlarının getdikcə daha çox türk və müsəlman dövlətləri də daxil olmaqla, qarşılıqlı fəaliyyətə doğru yönəldiyinin göstəricisidir. Təəccüblü deyil ki, Moskva üçün strateji forumlardan biri “Rusiya–İslam Dünyası. Kazan Forumu” bu il federal status almış Kazanda keçirilir. İslam bankçılığı bu yaxınlarda Rusiyanın bir sıra regionlarında sınaqdan keçirilmişdir.

Rusiya Qətərlə də fəal əməkdaşlıq edir. İyun ayında Rusiya lideri Kremldə Qətər Nazirlər Şurasının sədri Məhəmməd bin Abdel Rəhman Al Tanini qəbul edib.

Fikrimcə, Azərbaycan Prezidenti İlham Əliyev Budapeştdə keçirilən görüşdə xüsusi qonaq oldu və orada olanların hər biri onunla əlaqələrin möhkəmlənməsində maraqlı idi. Niyə? Cavab sadədir. İkinci Qarabağ müharibəsi başa çatdıqdan və əvvəllər işğal olunmuş ərazilərinin əksəriyyəti geri qaytarıldıqdan sonra Azərbaycan öz tarixində yeni səhifə açdı. Birincisi, onun beynəlxalq aləmdə nüfuzu xeyli artıb. Müharibədən sonra isə Azərbaycan hakimiyyəti ölkənin müxtəlif sahələrdə və müxtəlif beynəlxalq strukturlarda mövqelərini ardıcıl olaraq gücləndirmək vektorunu götürdü. Aydındır ki, o, türk dünyasının digər ölkələri ilə əlaqələri xeyli gücləndirməyə başlayıb. Azərbaycan regionun lideri və ən nüfuzlu dövlətinə çevrilib, bütün parametrlər üzrə ən güclü dövlətə çevrilib. Və onun səlahiyyəti tanınır.

Burada o faktor mühüm rol oynayır ki, beynəlxalq transformasiyalar müəyyən mənada yalnız Bakının dost tərəfdaşları ilə münasibətlərini gücləndirir. Uzaqgörənlik və dəqiq müəyyən edilmiş siyasət isə əməkdaşlığın dövlət üçün faydalı olan hər iki istiqamətini və çağırışları əvvəlcədən hesablamağa imkan verir.



Bu gün Azərbaycan türk və islam dövlətləri arasında Rusiya ilə tərəfdaşları arasında getdikcə daha çox körpü rolunu oynayır. Rusiya Federasiyası üçün bu, vacib, perspektivli əməkdaşlıq sahəsidir. Hesab edirəm ki, Rusiya Federasiyasının həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Türk Dövlətləri Təşkilatına tamhüquqlu üzv olmasının vaxtı çoxdan çatıb. Rusiyanın tarixi baxımdan bunu etməyə haqqı var və qlobal tendensiyalar baxımından bu, faydalı olacaq.

Azərbaycan Rusiya ilə digər türk və İslam dünyası arasında gözəl, güclü və inandırıcı vasitəçi ola bilər. Bir neçə il əvvəl Rusiya ilə Türkiyə arasında yaranmış çətin vəziyyətin həllində Azərbaycanın necə mühüm rol oynadığını yaxşı xatırlayırıq.



Fikrimcə, beynəlxalq aləmdə Azərbaycana hörmət amili ciddi rol oynayır. Belə ki, xüsusilə, bir müddət əvvəl Macarıstanın Baş naziri beynəlxalq aləmdə daha uğurlu olmağın yollarını Prezident İlham Əliyevdən öyrənməli olduğunu bildirmişdi.

Serbiya prezidenti Aleksandr Vuçiç də oxşar bəyanatlarla çıxış edib. Belə ki, o, İlham Əliyevin sözünün onun imzasına bərabər olduğunu qeyd edərək, ərazi bütövlüyünün təmin edilməsi məsələsində prezidentdən öyrənməyi təklif edib.

Əlavə edim ki, Budapeştdəki görüş ciddi praktiki maraq doğurdu. Beləliklə, Azərbaycan və Macarıstan Azərbaycan qazının tədarükünü artırmaq barədə razılığa gəliblər. Bakı və Budapeşt son illər əməkdaşlıq əlaqələrinin son dərəcə yüksək səviyyəsinə çatıb. Bu, ilk növbədə, enerji sahəsində əməkdaşlıqdır. Belə ki, ötən il Azərbaycan, Macarıstan, Rumıniya, Gürcüstan Qara dənizin dibi ilə Azərbaycanın “yaşıl enerjisi”nin tədarükü, bu il isə Azərbaycandan qaz nəqlinin artırılmasını nəzərdə tutan “Həmrəylik halqası” layihəsi üzrə razılığa gəliblər. Həmçinin Budapeştdə indi Türkiyədən qazın Macarıstana tədarükü ilə bağlı razılıq əldə olunub.

Bundan başqa, Macarıstanın xarici işlər naziri Rusiya qazının “Türk axını” ilə nəqlini təklif edib. O, həmçinin bildirib ki, Ukrayna öz ərazisi vasitəsilə Avropaya Rusiya qazının nəqlini bağlasa, Macarıstan və Serbiya kömək etməyə hazırdır.

Ötən gün Budapeştdə keçirilən görüşdə də iştirak edən Özbəkistan prezidenti Şavkat Mirziyoyev bu gün Azərbaycana dövlət səfəri edəcək. İşğaldan azad edilən Füzulidə İlham Əliyev və Mirziyoyev Özbəkistanın Azərbaycana hədiyyə etdiyi məktəbin açılışında iştirak edəcəklər. Bu həm də hörmət əlaməti və qarşılıqlı əlaqəni gücləndirmək istəyidir. Qeyd edək ki, bu gün Azərbaycan və digər türk dövlətləri gələcəkdə Rusiyanın da iştirak edə biləcəyi Orta Dəhliz kimi nəqliyyat layihələrini fəal şəkildə inkişaf etdirir. Bu gün Azərbaycan nəinki müxtəlif beynəlxalq qüvvələr arasında tarazlıq yarada bilən, özünü etibarlı, sərfəli tərəfdaş kimi nümayiş etdirən dövlətdir, həm də bunu uğurla həyata keçirən dövlətdir. Ona görə də Budapeşt görüşü və Azərbaycanla Rusiyanın orada iştirak etməsi dövlətlərin eyni istiqamətə baxdığının daha bir sübutudur.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
24 avqust
2023-cü il

# Azərbaycanda dərmanların qiyməti ucuzlaşacaq?



AÇIQLANDI

***"Prezident İlham Əliyevin fərmanı ilə təsdiq edilən "Dərman vasitələri haqqında" Qanunun qüvvəyə minməsi idxalda və gömrük prosedurlarında sadələşməyə və bu da həm dərman preoaratlarının qeydiyyatının asanlaşdırılmasına, həm də ölkəyə qısa müddətdə gətirilməsinə səbəb olacaq. Yəni, vaxt itkisinin qarşısı alınır. Çünki davamlı şəkildə görürük ki, bəzən dərman preparatlarının bir müddətdən sonra sırf idxalla bağlı ləngimələri ucbatından qıtlıq, yaxud dərman bazarından bu dərman preparatlarının itməsi müşahidə olunurdu. Yəni, bütün bu məsələlər asanlaşacaq". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin deputatı Müşfiq Məmmədli deyib.***

Onun sözlərinə görə, ikinci ən mühüm məsələ odur ki, əczaçılıq preparatlarının satışında bir qayda və nizamlılıq meydana gələcək: "Çünki bioloji aktiv maddələrin artıq dərman preparatı kimi və dərman preparatının bioloji aktiv maddə kimi bir qarışıqlıq yaratmasının qarşısı alınmışdır. Bioloji aktiv maddələrin artıq əczaçılıq müəssisələrində satılması bu qanundan sonra mümkün olmayacaq. Bu da həm əhalinin, həm də tibb sistemində çalışan mütəxəssislərin daha rahat, düzgün və reyestrə uyğun şəkildə fəaliyyət göstərməsinə səbəb olacaq.

Digər mühüm məsələ isə artıq müvafiq icra hakimiyyəti orqanı olan Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin burada rolunun tam aydınlaşdırılması və dərman preparatlarının qeydiyyatının düzənə salınmasıdır".

Müşfiq Məmmədli sözlərinə belə davam edib: "Bu qanunun qəbulundan sonra artıq daxili istehsal stiumullaşacaq. Bu da həm bizim yeni bir bilik tutumlu sahə olan dərman istehsalını sürətləndirəcək, o cümlədən gələcəkdə istehsal yönümlü əczaçılıq mütəxəssislərinin yetişməsinə, həm də bu sahədə yeni iş yerlərinin yaradılmasına gətirib çıxaracaq. Bütün atılan addımlar dərmanların həm çeşitliliyinin artmasına, həm keyfiyyətinin, həm də qiymətinin aşağı düşməsinə gətirib çıxaracaq".

***A.Vəli***



# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!

*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. **Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
2. **Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
3. **Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
4. **Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
5. **Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
6. **Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
7. **F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
8. **Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# "Qalatasaray"da Serxio Ramos həyəcanı hökm sürür

***İstanbulun "Qalatasaray" klubu UEFA Çempionlar Liqasının qrup mərhələsinə yaxınlaşmaqdadır. "Cim Bom" son olaraq "Pley-Off"da "Molde" əngəlini keçərək qrup mərhələsində iştirak etməyə çalışır. Sarı-qırmızılar bu turu keçib Çempionlar Liqasının qruplarında qalsa, böyük gəlir əldə edəcək. "Qalatasaray" qruplara qalacağı təqdirdə öz hesabına minimum 25 milyon avro qatacaq.***

"Qalatasaray"ın "Pley-Off"da "Molde" ilə keçirəcəyi qarşılaşmalar mühüm transfer üçün kritikdir. Mərkəz xətti üçün transfer siyahıda yer alan Serxio Ramos üçün önəmli addım bu mərhələdəki nəticədən asılıdır. İspan müdafiəçinin 2 illik müqavilə üçün təqribən 25 milyon avro tələb etməsindən sonra təxirə salınan Qalatasaray, Molde ilə qarşılaşmada istədiyi nəticəni alsa və tur üçün əhəmiyyətli bir addım atarsa, Ramosla əlaqələri sürətləndirəcək.

Karyerasını Çempionlar Liqasında bir



komandada davam etdirmək istəyən 37 yaşlı müdafiəçi rəhbərliyin əlini gücləndirəcək ki, xərci azaltmağa cəhd edə bilsin.

***Ləman Sərraf***

# Heyvanlara qarşı şiddətə görə hansı məsuliyyət nəzərdə tutulub?

"Son illər kütləvi informasiya vasitələrində heyvanların öldürülməsi barədə xəbərlərə tez-tez rast gəlirik. Müəyyən zamanlarda küçə və ya ev heyvanlarına insanların şiddət göstərdiyinin şahidi oluruq". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Sədr bildirib ki, ölkə qanunvericiliyinə görə heyvanlara işgəncə verənlərə qarşı cərimələr İnzibati Xətalar Məcəlləsində dəfələrlə artırılıb: "İnzibati Xətalar Məcəlləsinin (İXM) 274-cü maddəsi ilə heyvanlarla rəhmsiz davranmaq qadağan edilib. Rəhmsiz davranmaq dedikdə heyvanlara qarşı şiddət göstərərək onların şikəst və ya tələf edilməsi başa düşülür. Yuxarıda qeyd edilən maddəyə əsasən, bu əməli törədən şəxs 500 manat məbləğində cərimə edilir.

Azərbaycan Respublikasının da üzvü olduğu "Ev heyvanlarının mühafizəsi haqqında" Avropa Konvensiyasına əsasən heç bir kəs ev heyvanına lüzumsuz ağrı, əzab və ya zərər verə bilməz. Həmçinin heyvanı damazlıq üçün götürən hər bir kəs onun balasının və dişi heyvanın sağlamlığına zərər vura bilən anatomik, fizioloji və davranış xüsusiyyətlərinin düzgün nəzərə alınması üçün məsuliyyət daşıyır.

Həmin Konvensiyanın 7-ci maddəsinə əsasən heç bir ev heyvanı onun sağlamlığına və rifahına zərər vura biləcək üsullarla təlim edilməməlidir, xüsusən, əgər bu təlimlər heyvana ağrı verən, onun təbii



imkanlarından və gücündən artığına məcbur edilməklə, lüzumsuz ağrı, zərər və əzab verən vasitələrdən istifadə edilərək aparılırsa".

***Ayşən***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**